KHAZAR-REVIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 339 APREL 2015



khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218 - 2772

# DEPARTAMENT MÜDİRİMİZ LONDONDA

Aprelin 27-də Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqova İngiltərənin paytaxtı Londonda Britanyanın tanınmış violinisti, Britaniya Kral Musiqi Akademiyasının müəllimi və solisti Nəzrin Rəşidova ilə birgə böyük konsert proqramı ilə çıxış etmişdir.

Konsert Heydər Əliyev Fondu və "Bakı -2015" Avropa Oyunları Təşkilat Komitəsinin birgə təşkilatçılığı və Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin dəstəyi ilə Londonun *"The Dorchester Hotel"*ində Avropa Oyunlarının təqdimatı çərçivəsində keçirilmişdir

Təqdimat mərasimində hər iki ölkədən dövlət və hökumət nümayəndələri, Britaniyada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, deputatlar, London ictimaiyyətinin nümayəndələri, bu ölkədə yaşayan azərbaycanlılar iştirak edirdilər.



***Jurnalın üz qabığındakı foto "Azərbaycan II Beynəlxalq Psixologiya Konfransı"na (səh. 26) aiddir***

# İÇİNDƏKİLƏR


"Elm və Sənət Məclisi"nin növbəti məşğələsi . . . . 4
Malayziya səfiri Xəzər Universitetində . . . . 6
Tələbəmizin sərgisi . . . . 7
Gürcüstan Elmlər Akademiyasının prezidenti Giorgi Kvesitadze "Xəzər"də . . . . 8
"Depressiya və suisid" müsabiqəsinə yekun vuruldu . . . . 10
Qafqaz Universitetlər Birliyinin təhsil sərgisi . . . . 12
Xəzər Universitetində "Potensial məktəb direktorlarına məktəbin idarəedilməsi üzrə təlim kursu" . . . . 16
Azərbaycan II Beynəlxalq Psixologiya Konfransı . . . . 26
NDU xəbərləri . . . . 40
Xəzər Universitetində Qaydar məclisi təşkil edildi . . . . 42
Tələbələr Tibb Mərkəzinin Diaqnostik laboratoriyasında təcrübə keçdilər . . . . 54
Международный Научный Медицинский Центр имени академика Зарифы Алиевой и Азербайджанский Университет Хазар намерены сотрудничать в области науки и образования . . . . 58
ESFIDIP Tempus layihəsi çərçivəsində görüş . . . . 59
Neft mühəndisliyi tələbələri 20-ci tələbə elmi konfransında . . . . 62
"Liderlik və uğur faktorları" mövzusunda növbəti müzakirə . . . . 68
Kaliforniya Dövlət Universitetinin nümayəndələri "Xəzər"də . . . . 75
"Dünya" İdman Kompleksi . . . . 76



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

**Redaksiya heyəti:**
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Knyaz Aslan

**Rəssam:**
Mir Rafiq Əbdülrəhimov

**Kompüter tərtibatçısı:**
Nigar Aydəmirova

**Foto:**
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ BAKI 1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

**It has been published since January 1995**

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isaxanli

**Associate editors:**
Alirza Balayev

**Editorial member:**
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Knyaz Aslan

**Design by:**
Mir Rafig Abdulrahimov

**Computer graphics:**
Nigar Aydemirova

**Photo:**
Multimedia Centre






Aprelin 7-də Xəzər Universitetinin ənənəvi "Elm və Sənət Məclisi"nin 64-cü məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, məşğələdə iştirak edənləri, "Elm və Sənət Məclisi"nin budəfəki məşğələsində iştirak edən Kahramanmaraş Sütçü İmam Universitetinin rektoru, professor Durmuş Devecini səmimi salamladı. O, Mirzə Şəfi Vazehin həyat və yaradıcılığının araşdırılmasının vacibliyini vurğulayaraq, bu sahədə geniş bir araşdırma apardığını bildirdi və "Mirzə Şəfi Vazeh və Friedrich Bodenstedt: böyük dostluq və böyük ayrılıq" mövzusunda məruzə ilə çıxış etdi.

Məruzədən sonra müzakirələr başladı. Müzakirələrdə Səlim Babullaoğlu (şair), Vurğun Əyyub, Mail Yaqub, Fərda Əsədov (Xəzər Universiteti), Nazim Vəlişov (BDU), Sarvan Kərimov (AMEA Əlyazmalar İnstitutu) və digərləri çıxış etdilər. Məşğələdə universitet tələbələri, aspirantlar, doktorantlar və müəllimlər iştirak edirdilər.










On April 7, the 64th meeting of Khazar University's Assembly of Science and Art was held. Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made an opening speech and introduced Professor Durmus Deveci, Rector of Kahramanmaras Sutcu Imam University, who was visiting Baku and participating in the meeting. He gave a lecture on the topic “Mirza Shafi Vazeh and Friedrich Bodenstedt: Great Friendship and Great Separation,” emphasizing the importance of researching the life and activities of Mirza Shafi Vazeh and sharing from his own extensive research in this area.

After the lecture, a discussion was held. Active participants included Salim Babullaoghlu (poet), Vurghun Eyyub, Mail Yagub, and Farda Asadov from Khazar; Nazim Valishov (BSU); Sarvan Karimov (ANAS Manuscripts Institute); and others. Many university students and instructors also participated in the meeting.





## MALAYZİYA SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 9-da Malayziyanın Azərbaycana təyin olunmuş ilk Fövqəladə və Səlahiyyətli səfiri Dato Roslan Bin Tan Sri Abdul Rahman Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı ilə görüşdü. Görüş zamanı ölkələr arasında qarşılıqlı münasibətlər və təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. Malayziya və digər ölkələrin vətəndaşları üçün açıq olan Xəzər Universitetinin Beynəlxalq Təqaüd Proqramı haqqında da görüş zamanı kiçik təqdimat verildi.

Beynəlxalq əlaqələr ofisi (Beynəlxalq əlaqələr üzrə prorektor Fərda Əsədov və Beynəlxalq əlaqələr üzrə prorektor assistenti Turan Cəfərova) və Mühəndislik və tətbiqi elmlər fakültəsinin (Dekan Dr. Hassan Niknafs) əməkdaşları da görüşdə iştirak etmişlər.

Görüşün sonunda professor Hamlet İsaxanlı səfirə Xəzər Universitetinin yaranma tarixini əks etdirən "Xəzərin sorağında" adlı kitabını bağışladı. Səfir isə H. İsaxanlıya Malayziya haqqında materialları verdi və görüş iştirakçılarını Malayziyaya qonaq dəvət etdi.

Qeyd edək ki, Malayziyanın Azərbaycandakı səfirliyi cari ilin aprel ayında açılmışdır.



## AMBASSADOR OF MALAYSIA VISITS KHAZAR UNIVERSITY

On April 9, his Excellency Dato' Roslan Bin Tan Sri Abdul Rahman, first Ambassador of Malaysia to Azerbaijan visited Khazar University and had a meeting with the Founder and the Chairman of the Board of Directors and Trustless, professor Hamlet Isakhanli. Embassy of Malaysia has been officially opened in Azerbaijan in early April of the current year. Mutually beneficial relationships between the two countries and partnership in the field of education has been discussed during the meeting. Khazar University International Scholarship Program, a merit-based scholarship program open to nationals of all countries including Malaysia has also been presented.

International Affairs Office Staff (Farda Asadov, Vice Rector for International Affairs and Turan Jafarova, Assistant Vice Rector for International Affairs) as well as the Dean of the School of Engineering and Applied Scineces (Dr. Hassan Niknafs) have also participated in the meeting.

At the end of the meeting, Professor Hamlet Isakhanli has presented the Ambassador his book "In Search of "Khazar," a memoir of Khazar University's establishment. Ambassador of Malaysia has presented materials about Malaysia and invited meeting participants to visit it.



## TƏLƏBƏMİZİN SƏRGİSİ

Aprelin 7-9-da Xəzər Universitetində Humanitar və sosial elmlər fakültəsinin birinci kurs tələbəsi Pəri Qazıbəyovanın əl işlərindən ibarət sərgi nümayiş etdirilmişdir. O, bu sərgisini doğma universitetin 24 illiyinə həsr etdiyini söyləmişdir.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, əməkdaşlar və tələbələr sərgidə olmuş, müəllifin öz işlərinə aid izahatını dinləmişlər. Sərgidə nümayiş etdirilən müxtəlif fiqurlar, aksessuarlar tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.







# GÜRCÜSTAN ELMLƏR AKADEMİYASININ PREZİDENTİ GİORGİ KVESİTADZE "XƏZƏR"DƏ

Aprelin 16-da Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti Giorgi Kvesitadze Xəzər Universitetində oldu, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü.

Sonra G.Kvesitadze müəllimlər və tələbələr üçün "Bitkilərin ekoloji potensialı" mövzusunda mühazirə oxudu. Mühazirədən əvvəl H.İsaxanlı çıxış edərək, qonağı tələbələrə təqdim etdi.

G.Kvesitadzenin mühazirəsi iştirakçılar üçün çox maraqlı oldu.

Tədbirdə universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Biologiya departamentinin müdiri İradə Xəlilova, Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri Muxtar Hacızadə, İnkişaf direktoru Raziyə İsayeva və digər əməkdaşlar da iştirak etdilər.

Mühazirədən sonra alim iştirakçıları maraqlandıran suallara cavab verdi.



## DR.GIURGI KVESITADZE, PRESİDENT OF GEORGİAN ACADEMY OF SCİENCES, VİSİTES KHAZAR



On April 16, Dr. Giorgi Kvesitadze, the President of the Georgian Academy of Sciences, visited Khazar University and met with Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

Then G.Kvesitadze delivered a lecture for students and instructors on "The Ecological Potential of Plants." Before the lecture, Prof. Isaxanli gave an opening speech to introduce the guest. The lecture was very interesting for all the participants. University administrative members and faculty who participated in the event included Isakhan Isakhanli, Vice President; Alovsat Amirbeyli, Director of Public Relations and Media; Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Irada Khalilova, Chair of the Biology Department; Rovshan Abbasov, Chair of the Department of Geography and Environment; Roza Arazova, Chair of the Department of History and Archeology; Mukhtar Hajizadeh, Chair of the Department of Political Science and International Relations; Raziya Isayeva, Development Director; and others.

After the lecture, G.Kvesitadze answered participants' questions.







# “DEPRESSİYA VƏ SUİSİD” MÜSABİQƏSİNƏ YEKUN VURULDU

Aprelin 9-da Xəzər Universitetinin Mərmər salonunda universitetin Psixologiya və Konsultasiya Mərkəzi və “Düşüncə” jurnalının birgə layihəsi olan “Depressiya və suisid” mövzusunda “*Creative author*” (“Yaradıcı müəllif”) müsabiqəsinin yekun tədbiri keçirildi. Müsabiqəyə 100 məqalə daxil olmuş və onlar arasından 36 məqalə seçilmişdir.

Müsabiqə aşağıdakı istiqamətlər üzrə aparılmışdır:

- Problemlə bağlı ümumi xarakteristika;
- “Depressiya və suisid”lə qarşılaşan şəxslərlə aparılan müsahibə;
- Bu istiqamətdə hər hansı əsərin, mahnının və ya filmin təhlili;
- Elmi cəhətdən problemin analizi.

Məqalələr peşəkar mütəxəssislər tərəfindən yoxlanılmışdır:

- Xəzər Universiteti İnsan resursları departamentinin rəhbəri, Psixologiya departamentinin müdiri psixoloq Ülkər İsayeva;
- AMEA-nın elmi işçisi, Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri, ailə psixoloqu Elnur Rüstəmov;
- Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini psixoloq Mələk Kərimova;
- Tibb elmləri üzrə fəlsəfə doktoru, dosent, psixiatr Araz Manüçöhri Lalei;
- Psixologiya və Konsultasiya Mərkəzinin psixoloqu Aygün Ağabalayeva;
- Psixologiya və Konsultasiya Mərkəzinin klinik psixoloqu Orxan Fərəcli.







Nəticə olaraq, dörd nəfər qalib müəyyən edildi.

*"Creative author"* müsabiqəsinin qalibi I qrup əlil Samir İmanov seçilərək, Xəzər Universiteti Psixologiya və Konsultasiya Mərkəzi və "Düşüncə" jurnalı tərəfindən mükafatlandırıldı.

Müsabiqə çərçivəsində keçirilən tədbirdə mövzu ilə bağlı treninq keçirilmişdir. Mütəxəssislər tərəfindən "Depressiya və suisid" ətrafında psixoloji açıqlama AMEA-nın elmi işçisi, Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri, ailə psixoloqu E. Rüstəmov, hüquqi açıqlama hüquqşünas Akif Əlizadə və fəlsəfi açıqlama isə Xəzər Universiteti Fəlsəfə departamentinin müdiri Mail Yaqub tərəfindən verildi.

Tədbirin sonunda Xəzər Universitetinin təsisçisi və rektoru, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Xəzər Universiteti İnsan resursları departamentinin müdiri, Psixologiya departamentinin koordinatoru Ülkər İsayeva layihə ilə əlaqədar öz fikirlərini bildirdilər.





*"Creative author"* müsabiqəsinin qalibi I qrup əlil Samir İmanov seçildi, Xəzər Universiteti Psixologiya və Konsultasiya Mərkəzi və "Düşüncə" jurnalı tərəfindən mükafatlara layiq görüldü.



# KAFKASYA ÜNİVERSİTETLER BİRLİĞİ 2015 KÜNİB Egitim Fuarı






Aprelin 11-12-də Park-İNN otelində Qafqaz Universitetlər Birliyinin (KÜNİB) təhsil sərgisi keçirildi. Sərgidə Türkiyənin 33 universiteti iştirak edirdi. KÜNİB Başkanı, Ardahan Universitetinin rektoru, professor Ramazan Korkmaz sərgidə iştirak edən universitet nümayəndələrini, sərgiyə gələn şagirdləri və qonaqları salamlayaraq, sərgi haqqında məlumat verdi. O, bu sərginin Bakıda KÜNİB tərəfindən keçirilən ikinci sərgi olduğunu qeyd etdi.

On April 11-12, an exposition of the Caucasus University Association (KUNIB) was held at Park Inn hotel in Baku. 33 universities of Turkey were represented in the event. Professor Ramazan Korkmaz, President of Ardahan University and Chairman of KUNIB, made an opening speech welcoming the guests and noting that this was KUNIB's second exposition in Baku.





Sərginin rəsmi açılışında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, BDU-nun rektoru professor Abel Məhərrəmov, İzmir Yüksek Teknoloji Universitetinin rektoru, professor Mustafa Güden, İstanbul Universitetinin rektoru, professor Mehmet Karaca, R.T. Erdoğan Universitetinin rektoru, professor Hüseyin Karaman, Sinop Universitetinin rektoru, professor Recep Bircan, Haliç Universitetinin rektoru, professor Remzi Çetin, Erzurum Teknik Universitetinin rektoru, professor Muammer Yaylalı, Batman Universitetinin rektoru, professor Abdussalam Uluçam, Diyarbakır Dicle Universitetinin rektoru, professor Ayşegül Lalə Sarac və digər qonaqlar çıxış edərək, sərginin işinə uğurlar arzuladılar.

Presidents of numerous Turkish and local universities (Baku State University, Izmir Institute of Technology, Istanbul University, Recep Tayyip Erdoğan University, Sinop University, Haliç University, Erzurum Technical University, Batman University, Dicle University and others), including Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in the official opening of the expo.







Sərginin açılışında Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də iştirak etdi.

Sonra KÜNİB rəhbərliyi tərəfindən mətbuat konfransı keçirildi. Mətbuat konfransında H. İsaxanlı da çıxış etdi.

KÜNİB Başkanı Ramazan Korkmaz H.İsaxanlını sərgi ilə tanış etdi. Bozok Universiteti ilə Xəzər Universiteti arasında Mevlana proqramı çərçivəsində, Bayburt Universiteti ilə ikitərəfli müqavilə imzalandı. H.İsaxanlı sərgidə iştirak edən Türkiyə universitetlərinin nümayəndələri ilə xatirə şəkilləri çəkdirdi.

Alovsat Amirbeyli, Khazar University's Director for Public Relations and Media, also participated in the opening ceremony.

After the opening, a press conference was held for the university presidents. Prof. Hamlet Isaxanli also made a speech during the press conference. Ramazan Korkmaz showed Prof. Isaxanli around the expo. Khazar University signed two agreements, including a Mevlana Exchange Programme agreement with Bozok University and a bilateral agreement with Bayburt University.





Həmin gün H. İsaxanlı İzmir Yüksek Teknoloji Universitetinin rektoru, professor Müstafa Güden və xanımının şərəfinə “Sumax” restoranında ziyafət verdi. Ziyafətdə Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurası sədrinin müşaviri Nailəxanım İsayeva və Ə. Əmirbəyli iştirak etdilər. İzmir Yüksek Teknoloji Universitetinin rəhbərliyi və universitetin sərgidə iştirak edən digər nümayəndələri Bakı şəhərinin görməli yerləri ilə də tanış oldular.

After the event, Prof. Isaxanli and his wife, Nailakhanim Isayeva, hosted Professor Mustafa Guden, President of Izmir Institute of Technology, and his wife at the Sumakh Restaurant and took the guests on a city tour.







## Xəzər Universitetində “Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu” başa çatdı

*Kursu bitirənlərə sertifikat təqdim olundu*

**Kursun əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir.**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəblərin idarə edilməsi üzrə apardığı islahatları dəstəkləmək məqsədilə UNICEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə noyabrın 17-də universitetin Neftçilər kampusunda başlamış “Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu” uğurla başa çatmışdır. Qeyd edək ki, bu, Xəzər Universitetində kursun ilk buraxılışıdır və kurs yeni qəbul edilmiş müdavimlərlə davam etməkdədir.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir. Bu məqsədlə 9 fənn (İKT, Kurikulumun tətbiqi və idarə edilməsi, Təhsilin idarə olunması, Statistika və məlumatların təhlili, Maliyyə və mühasibat uçotu, Qanunvericilik və təhsil hüququ, Təhsil psixologiyası, Psixometrika, Kitabxana - İnformasiya Mərkəzi Resursları) üzrə həftədə 4 gün 16 saat olmaqla keçirilən dərslər 12 həftə davam etmişdir.





Təlimlər zamanı layihə çərçivəsində universitetin Mərmər salonunda “Qonaq Mühazirəçilər Seminarları” fəaliyyət göstərmişdir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının “Təhsildə idarəetmə: nəzəriyyə və təcrübə” adlı mühazirə-müzakirə formatındakı ilk seminarı ilə başlayan tədbir sonrakı müddətdə davam etdirilmişdir. Təhsil Nazirliyinin Təhsilin İnkişafı Proqramları şöbəsinin müdir müavini Emin Əmrullayev “Ümumtəhsil məktəblərində idarəetmə problemləri" mövzusunda mühazirə oxumuş, Bakı şəhərinin tanınmış məktəblərindən olan 23 saylı məktəbin direktoru Yulya Kərimova sual-cavab şəklində seminar keçirmişdir. Seminarlardan sonra iştirakçıların sualları ətraflı cavablandırılmışdır. İştirakçılar üçün digər mövzularda da seminarlar keçirilmişdir.

Kursun məşğələlərində iştirakçıların təqdimatları olmuş, müzakirələr aparılmış, çay süfrəsi ətrafında söhbətlər keçirilmişdir. Onlar kursun çox əhəmiyyətli olduğunu, əldə etdikləri nəzəri və təcrübi bilikləri öz işlərində tətbiq edəcəklərini bildirmişlər. İştirakçılar Xəzər Universitetinin “Dünya” məktəbi ilə də tanış olmuş, onlara H. İsaxanlının Azərbaycan, rus və ingilis dillərində çap olunmuş “Xəzərin sorağında” kitabı təqdim edilmişdir.





Aprelin 24-də Xəzər Universitetinin Mərkəz kampusundakı “Dünya” konfrans salonunda kursu bitirmiş 87 nəfərə “Peşəkar İnkişaf Sertifikatı” təqdim olunması münasibətilə mərasim keçirildi.

Mərasimi H. İsaxanlı açaraq, geniş çıxış etdi. O, kursun əhəmiyyətindən danışıb, UNICEF və Təhsil Nazirliyinə təşəkkürünü bildirdi və UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Andro Şilakadzeyə təşəkkür plaketi təqdim etdi. A. Şilakadze təşəkkür plaketinə görə minnətdarığını bildirdi və UNICEF-in təhsil sahəsində həyata keçirdiyi proqramlar haqqında geniş məlumat verdi. Təhsil Nazirliyinin nümayəndəsi E. Əmrullayev çıxışında Xəzər Universitetindəki bu kursu yüksək qiymətləndirdi və məktəb rəhbərləri qarşısında duran vəzifələrdən danışdı.

Sonra sertifikatların təqdim olunması mərasimi başlandı. Sertifikatları H. İsaxanlı, A. Şilakadze və E. Əmrullayev təqdim etdilər. Xatirə şəkilləri çəkildi.








Kursu bitirənlər adından Sevinc Mustafayeva və Əliqismət Səfərov çıxış edərək, layihə rəhbəri – Xəzər Universiteti İnkişaf mərkəzinin direktoru Raziyə İsayevaya və layihə koordinatoru – Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Elza Səmədovaya və layihənin digər təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

Mərasim iştirakçılarına Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin, oğlanlardan və qızlardan ibarət rəqs qruplarının konserti təqdim olundu. Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarovanın ifasında mahnılar səsləndi.

Mərasim xoş əhval-ruhiyyə ilə başa çatdı.



# XƏZƏR UNİVERSİTƏSİ







# Khazar University's Training Course for Potential School Directors Successfully Completed

*Certificates presented to graduates*

**The main objective of the project was to increase the knowledge and skills of school directors and educational workers interested in working as school directors in the future in accordance with the new education strategy and the educational reforms of the country.**

The "Management Training Course for Potential School Directors," which was carried out to support educational reforms of the Azerbaijan Republic Ministry of Education, was launched on November 17 at Khazar University's Neftchilar campus and was completed on April 24th. This was the first session of the course, which will now be offered again with a new group of participants.

The main objective of the project was to increase the knowledge and skills of school directors and educational workers interested in working as school directors in the future in accordance with the new education strategy and the educational reforms of the country. The training also aimed to help the participants learn to apply global experience in the area of school administration. For this purpose, the training course offered lessons in 9 subjects (ICT, curriculum application and management, educational administration, statistics and analysis, finance and accounting, legislation and education law, educational psychology, psychometrics, and library-information center resources) for four days a week (16 course hours a week) for a total of 12 weeks.




During the course, a "Guest Lecture Seminar" series was held for participants in the university's Marble Hall. The first lecture was given by Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, on the topic of "Educational Administration: Theory and Practice." Other guest lectures were given by Emin Amrullayev of the Ministry of Education on the topic of "Administrative Problems in General Schools" and by Yulia Kerimova, Director of School number 23 (a well-known school in Baku), who held a question-and-answer session. After each seminar, participants' questions were answered. Other lectures were also arranged for the participants.

The course's classroom sessions included presentations for the participants, discussions, and conversations over tea. The participants stated that the course was very significant for them and that they had been able to apply theoretical and practical knowledge gained through the course. The participants also visited Khazar University's affiliate Dunya School. They were given copies of Hamlet Isaxanli's book "In Search of Khazar," which is printed in the Azerbaijani, Russian and English languages.







On April 24th, a ceremony was held in Khazar University's downtown campus in the World Conference Hall to award Professional Development Certificates to the 87 participants who had successfully completed the course. Opening the ceremony, H.Isaxanli made a speech about the significance of the course. He thanked UNICEF and the Ministry of Education for their support, and he presented a plaque to Andro Shilakadze, the Director of UNICEF's Azerbaijan office. A.Shilakadze thanked the university for the plaque and spoke about UNICEF's programs in the educational field. Then E.Amrullayev, representative of the Ministry of Education, spoke highly of the course and noted the challenges remaining for the course alumni.

Then certificates were presented by H.Isaxanli, A.Shilakadze, and E.Amrllayev. Group photos were taken.





Sevinj Mustafayeva and Aliqismat Safarov made speeches on behalf of the graduates. They thanked Raziya Isayeva, the project director and Khazar University's Development Director; Elza Samadova, the project coordinator and Dean of the School of Education; and others involved in the organization of the course.

Then a concert was performed under the leadership of Zulfiyya Sadigova, head of the Khazar University Department of Music and Fine Arts, including performances of the university's chamber orchestra as well as boys' and girls' dance ensembles. Mehseti Jabbarova, vocal instructor, performed several songs.

The ceremony ended in a pleasant atmosphere.









# AZƏRBAYCAN II BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI

**25-26 Aprel 2015**









**KONFRANSDA MÜXTƏLİF UNİVERSİTET, PSİXOLOGİYA MƏRKƏZLƏRİ VƏ KLİNİKALARDAN ÜMUMİLİKDƏ 200-DƏN ARTIQ MÜTƏXƏSSİS İŞTİRAK EDİRDİ.**









## AZƏRBAYCAN II BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI

Aprelin 25-26-da Xəzər Universitetinin Psixologiya departamenti və Karyera Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanda II Beynəlxalq Psixologiya Konfransı" keçirildi. Konfransda müxtəlif universitet, psixologiya mərkəzləri və klinikalardan ümumilikdə 200-dən artıq mütəxəssis iştirak edirdi. Konfransın məqsədi psixologiya sahəsində yeni biliklər əldə etmək, bu sahənin mütəxəssislərinin təcrübələrindən yararlanmaq, fərqli baxış tərzlərini görmək, müqayisə etmək, xarici ölkələr və Azərbaycan psixoloqlarının bir-birilə tanışlığı və elmi-praktik əlaqələrin qurulması üçün şərait yaratmaq idi.

## II INTERNATIONAL PSYCHOLOGY CONFERENCE

On April 25-26, the "II International Psychology Conference in Azerbaijan" was held by the Khazar University Psychology Department and Career Center. Over 200 people participated in the conference, including representatives from various universities, psychology centers, and clinics. The objective of the conference was to create opportunities for local and foreign psychologists to acquire new knowledge in the field of psychology, benefit from the expertise of specialists in this field, see and compare different points of view, get acquainted with each other and develop their networks.







Konfransı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, konfransın əhəmiyyətindən, universitetdə ixtisaslı psixoloq kadrlarının hazırlanması sahəsində görülən işlərdən danışdı. Azərbaycanın Baş psixiatrı Gəray Gərayzadə çıxış edərək, Azərbaycanda psixiatriya elminin nəzəri və tətbiqi cəhətləri, həmçinin, problemləri haqqında məlumat verdi.

Türkiyədən dəvət olunmuş və yerli psixoloqlar və psixiatrlar konfransın birinci günündə müxtəlif mövzularda çıxış etdilər.

Uşaq psixiatrı İkram Rüstəmov "Günümüzün ən aktual uşaq psixi problemlərinə psixiatrik yanaşma", tibb elmləri doktoru Cem Kınacı "Autizmin diaqnoz və müalicəsində multidisiplinar yanaşma", psixiatr, psixoterapevt İbrahim Bilgen "Həyəcan pozuntuları zamanı psixoterapevtik yardım", psixoloq, NLP üzrə mütəxəssis Mustafa Çay "NLP – neyrolinqvistik proqramlaşdırma", sosioloq Əbülfəz Süleymanlı "Tənhalıq probleminin sosioloji və psixoloji mahiyyəti" mövzularında çıxış edərək, iştirakçıları məlumatlandırdılar.

The conference was opened by Professor Hamlet Isaxanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, who spoke about the significance of the conference and the university's activities in preparing specialists in the field of psychology. Then a speech was made by Garay Garayzadeh, Chief Psychiatrist of Azerbaijan, about practical and theoretical aspects of psychiatry in Azerbaijan and related issues.

On the first day of the conference, psychologists and psychiatrists who had been invited from Turkey as well as local professionals made presentations.

Children's psychiatrist Ikram Rustamov spoke on "Psychiatric Approach to Today's Most Pressing Problems in Children's Psychiatry;" Doctor Jem Kinaji spoke on "Multidisciplinary Approach to the Diagnosis and Treatment of Autism;" psychiatrist and psychotherapist Ibrahim Bilgen spoke on "Psychotherapeutic Aid in Cases of Anxiety Disorder;" psychologist and specialist on Neuro-Linguistic Programming Mustafa Chay spoke on "NLP – Neuro-Linguistic Programming;" and sociologist Abulfaz Suleymanli spoke on "The Sociological and Psychological Essence of Loneliness."





Konfransın ikinci günündə isə beş müxtəlif mövzuda – “Autizmin diaqnozu və müalicəsinə multidisiplinar yanaşma” (Cem Kınacı), “Həyəcan pozuntuları zamanı psixoterapevtik yardım” (İbrahim Bilgen), “Müalicə prosesinin uğurunda psixoterapevtik meyarlar” (Nevzat Tarhan), “NLP – neyrolinqvistik proqramlaşdırma” (Mustafa Çay) və “Uşaqlarda affektiv xəstəliklər, müalicə və izlənməsi” (İkram Rüstəmov) mövzularında təlim xarakterli seminarlar keçirildi.

Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olundu, Xəzər Universitetinin “Note Done Yet” qrupu musiqi proqramı ilə çıxış etdi.

On the second day of the conference, teaching seminars were held on the following topics: “Multidisciplinary Approach to the Diagnosis and Treatment of Autism” (Jem Kinaji), "Psychotherapeutic Aid in Cases of Anxiety Disorder” (Ibrahim Bilgen), “Psychotherapeutic Factors in Successful Treatment Processes”(Nevzat Tarhan), "NLP – Neuro Linguistic Programming"(Mustafa Chay) and "Treatment and Follow-up of Affective Disorders in Children" (Ikram Rustamov).

At the end of the conference, certificates were presented to participants. Then the Khazar University band “Note Done Yet” performed a concert.






Konfransın sonunda iştirakçılara sertifikat təqdim olundu, Xəzər Universitetinin "Note Done Yet" qrupu musiqi proqramı ilə çıxış etdi.









## TƏLƏBƏLƏRİN NUMİZMATİKA MUZEYİNƏ EKSKURSİYASI

Aprelin 10-da Xəzər Universiteti Təhsil fakültəsinin tarix müəllimliyi ixtisasının tələbələri Tarix və arxeologiya departamentinin rəhbərliyi və müəllim heyəti ilə birgə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində yerləşən Numizmatika muzeyində oldular.

Tələbələrə ekskursiyanı təcrübəli numizmat və pedaqoq, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu yanında Elmi-mədəni mərkəzin baş elmi işçisi, tarix elmləri üzrə fəlsəfə doktoru Qənirə Pirquliyeva apardı. O, tələbələrə pula qədər insanların istifadə etdiyi əmtəələr, e.ə V əsrdən başlayaraq Azərbaycan ərazisindən tapılan sikkə nümunələri, mis, qızıl, gümüş pullar haqqında ətraflı məlumat verdi.

XIV əsrə aid məhəllə məscidi olan Çin məscidində yerləşən numizmatik fonddan başqa, tələbələrə İçərişəhərin qala divarları və tarixi haqqında ətraflı məlumat verildi və maraqlı yerlər göstərildi.



## ERASMUS MUNDUS EUROEAST LAHİYƏSİ

Martın 1-dən 31-dək Beynəlxalq Əlaqələr Ofisinin əməkdaşı Şəbnəm Nəcəfzadə və Ümumi şöbənin əməkdaşı İlahə Musayeva Erasmus Mundus EuroEast layihəsi çərçivəsində Belçikanın Gent Universitetində və İspaniyanın Valensiya Politexnik Universitetində təcrübə keçmişlər. Hər iki universitetin rəhbərliyi ilə görüşən Xəzər Universitetinin əməkdaşları gələcək əməkdaşlığı müzakirə etmiş və universitetin tanıdılması üçün nəzərdə tutulan materialları ev sahiblərinə təqdim etmişlər.

Təcrübə müddətində Gent Universitetinin təşkil etdiyi "İşçi təlim həftəsi"ndə bir çox Avropa universitetlərindən gələn əməkdaşlarla fikir mübadiləsi aparılmışdır.



## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI AVROPADA TƏCRÜBƏ MÜBADİLƏSİ PROQRAMINDA

## ERASMUS MUNDUS EUROEAST PROJECT

Ms. Najafzade Shabnam, the member of International Affairs Office and Ms. Ilaha Musayeva, the member of General Affairs Office got experience at Ghent University in Belgium and Valencia Polytechnic University in Spain within Erasmus Mundus EuroEast project on March 1-31. They discussed the future cooperation with the administration of the both universities and presented the promotion materials of Khazar University to them. Ms. Shabnam Najafzade and Ms. Ilaha Musayeva participated in the "Staff Training Week" at Ghent University and exchange the ideas with the colleagues from the European Universities.

## KHAZAR STAFF MEMBERS ON EXCHANGE PROGRAM TO EUROPE



## XƏZƏR UNİVERSİTETİNDƏ HELP DESK

Aprel ayından Xəzər Universitetində SSDS Tempus layihəsi çərçəvəsində Help Desk (Məlumat mərkəzi) xidməti yaradılmış və fəaliyyətə başlamışdır. Bu xidmət tələbələrin iştirakı və dəstəyi ilə həyata keçirilir. Help Desk-də tələbələrin əsas vəzifələri və məqsədləri tələbələrə, universitet işçilərinə, qonaqlara, hətta valideynlərə universitet haqqında məlumat vermək, hər hansı bir problemləri və ya təklifləri varsa, onları qəbul etmək, həlli yolunu tapmaqda yardımçı olmaqdır. Help Desk-də problemlərin necə və harada tez və asan yolla həll olunmasını tapmaq və tələbələrə məsləhətçi olmaq başlıca işdir. Bununla da onların həyatını daha da asanlaşdırmaq olar.

## HELP DESK CREATED AT KHAZAR UNIVERSITY

In April, a Help Desk was opened at Khazar University as part of the SSDS Tempus project. This service is offered with the support and participation of students. The main duty of students at the Help Desk is to give information about the university to students, university employees, guests, and parents, as well as to accept suggestions and help solve to problems.

The main objective of the Help Desk is to give advice to students and to help find the easiest and most effective solutions for problems raised. The Help Desk aims to improve the overall quality of student life.



## BİRLƏŞMİŞ KRALLIQ UNİVERSİTETLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 10-da Beynəlxalq Əlaqələr Ofisinin əməkdaşı Turan Cəfərova Levant Təhsil Qrupunun təşkil etdiyi görüşdə iştirak etmişdir. Görüş Birləşmiş Krallıq universitetlərinin nümayəndələri Azərbaycana səfəri çərçivəsində təşkil olunmuş, yerli və xarici universitet nümayəndələri və ali təhsil mütəxəssisləri üçün əlaqələr qurmaq, ideyaları bölüşmək və şəbəkələşmək məqsədi daşıyırdı.

Birləşmiş Krallığın Mançestr Universiteti, Bristol Universiteti, Kings Kollec London, Şeffild Universiteti, Surrey Universiteti, Soushampton Universiteti, Aberdin Universiteti, Qlazqo Universiteti, East Anglia Universiteti və digər universitetləri görüşdə təmsil olunmuşdur.

Turan Cəfərova görüşdə iştirak edən universitetlərin nümayəndələrinə Xəzər Universitetinin 2015-2016-cı tədris ili üçün təklif etdiyi Beynəlxalq Təqaüd Proqramı haqqında məlumat vermiş və proqrama aid olan materialları (poster) təqdim etmişdir

KUISP təqaüd proqramı bütün xarici vətəndaşlar üçün açıqdır. Potensial tələbələr (bakalavr, magistr və doktarantura) universitetin dörd fakültəsinə müraciət edə bilərlər.

## NETWORKING MEETING WITH REPRESENTATIVES OF UNIVERSITIES

On April 10, International Affairs Office staff Turan Jafarova, participated in the Networking Event organized by Levant Education Group. The networking event was part of the UK University Tour which allowed UK university representatives and local experts in higher education to meet up, establish connections, share ideas and socialize in an informal atmosphere.

The universities attending from the UK were: University of Manchester, University of Bristol, Kings College London, Cardiff University, Sheffield University, University of Surrey, Southampton University, University of Aberdeen, Glasgow University, University of East Anglia, and others.

Turan Jafarova has presented the Khazar University International Scholarship Program (KUISP) to participating universities and shared program promotional materials (poster) with them.

Khazar University International Scholarship Program is a merit-based scholarship extended to nationals of all countries without any limitation. KUISP is available for potential students, both graduate (Master and PhD) and undergraduate (Bachelor), at all four schools of the University.

ANKOS
ANADOLU ÜNİVERSİTE KÜTÜPHANELERİ KONSORSİYUMU

## KİM-İN DİREKTORU TÜRKİYƏDƏ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Aprelin 9-dan 11-dək Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin direktoru Gülşən Mehdiyeva Türkiyənin Antaliya şəhərində keçirilən ANKOS-un konfransında iştirak etmişdir. Konfransda kitabxanalarla bağlı yeniliklər haqqında təqdimatlar keçirilmiş və dünyanın nüfuzlu nəşriyyatlarının və digər təşkilatlarının məhsulları – məlumat bazaları, kitabxana avadanlıqları, elektron kitab və jurnalları təqdim edilmişdir.

G.Mehdiyeva ANKOS-un başkanı və rəhbər heyətinin Azərbaycan kitabxanaçıları ilə görüşündə iştirak etmiş və bu təşkilatla əməkdaşlıq məsələlərini müzakirə etmişdir.

Görüşün nəticəsi olaraq, Azərbaycan kitabxanaçılarının Türkiyə kitabxanalarında personal təcrübə proqramının keçirilməsinə və türk ədəbiyyatının beynəlxalq kitabxanalararası mübadiləsinin reallaşdırılmasına qərar verilmişdir.

## LIBRARY DIRECTOR AT CONFERENCE IN TURKEY

On April 9-11, 2015, Gulshen Mehdiyeva, Director of the Khazar University Library-Information Center, participated in the Ankara University Libraries' Consortium (ANKOS) conference in Antalya, Turkey. The conference included presentations about new developments for libraries and new resources put out by the world's best-known publishers as well as other organizations, including databases, library equipment, and electronic books and journals.

G.Mehdiyeva participated in a meeting of Azerbaijani librarians with the president of ANKOS and its executive board to discuss prospects for joint cooperation with the organization. A decision was made to start a program for Azerbaijani librarians to visit Turkey for practical experience and to start an international book exchange of Turkish literature.




## "XƏZƏR"İN MÜƏLLİMLƏRİ HZ. PEYĞƏMBƏRİN HƏYATI İLƏ BAĞLI BEYNƏLXALQ SİMPOZİUMDA

Aprelin 9-dan 12-dək Türkiyənin İstanbul şəhərində "Meridyen" dərnəyinin təşkil etdiyi "Türkiyədə bütün yönləri ilə siyər çalışmaları" adlı beynəlxalq simpozium təşkil edilmişdir.

Dörd gün çəkən bu simpoziumda Xəzər Universiteti Şərq dilləri və dinşünaslıq departamentinin müdiri, fəlsəfə doktoru Elnurə Əzizova və həmin departamentin fars dili müəllimi, fəlsəfə doktoru Zivər Hüseynli iştirak etmişlər. E.Əzizova "Türkiyə qaynaqlı siyər çalışmalarının müstəqillikdən sonrakı Azərbaycanda Hz.Peyğəmbər təsəvvürünə təsiri", Z. Hüseynli isə "Qurana görə siyər: Hz. Peyğəmbərin həyatı və Sireyi Peyğəmbəri-Əkrəm kitablarının müqayisəsi" adlı məruzələrlə çıxış etmişlər.

## YENİ TƏDQİQAT LABORATORİYASI YARADILACAQ

Aprelin 13-də Xəzər Universitetində yaradılacaq elmi-tədqiqat laboratoriyası olan "Xəzər Proqramlaşdırma Araşdırma Mərkəzi" – "XPAM" ilə əlaqədar görüş keçirildi. Görüşdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Akademik işlər üzrə prorektor Məhəmməd Nuriyev, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Hassan Niknafs və müvafiq departamentlərin əməkdaşları iştirak edirdilər.

H. İsaxanlı universitetin nüfuzunu dünya miqyasına qaldıra bilən bu tipli tədqiqat layihələrinin əhəmiyyətini vurğuladı."XPAM"ın məqsədi informasiya texnologiyaları ilə bağlı sahələrdə yüksək keyfiyyətli tədqiqatları təbliğ etməkdir.

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ DEBAT ÇEMPİONATINDA

Aprelin 15-də Qafqaz Universitetində Asiya İnkişaf Bankının təşkilatçılığı ilə universitetlərarası debat çempionatında Xəzər Universiteti 2-ci yeri tutdu.

Çempionatda Qafqaz Universiteti, ADA Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyası, Turizm və Menecment Universitetinin hər birindən 2 komanda, Xəzər Universitetindən isə bir komanda iştirak edirdi.

Tələbə Məclisinin təşkil etdiyi komandanı İqtisadiyyat və menecment fakültəsindən Elnur Bədəlov, Humanitar və sosial elmlər fakültəsindən Hüseyn Hüseynli, Mühəndislik və tətbiqi elmlər fakültəsindən Nərmin İsayeva təmsil edirdilər. Komandanın adminstratoru Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov, fotoqrafı Media Mərkəzindən Tərlan Məmmədli idi.

Xəzər Universiteti ilk mərhələdə Turizm və Menecment Universitetinin komandasına, 2-ci mərhələdə (yarımfinal) Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasının komandasına qalib gələrək, finala çıxdı. Finalda ADA Universitetinin "Lider" komandasına 2 xalla məğlub oldu.

Çempionat da Xəzər Universitetinin tələbəsi Nərmin İsayevaya ən yaxşı spiker adı verildi.




# XƏZƏR TEXNOPARKININ GƏLƏCƏK FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏ

Aprelin 14-də Xəzər Texnoparkının təşkilatçılığı ilə Xəzər Universitetində "*Software Development Lifecycle*" adlı tədbir keçirildi. Tədbiri giriş sözü ilə Xəzər Univeristetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açdı.

Tədbir zamanı müxtəlif peşə sahibləri – telekommunikasiya, bank, sığorta, neft-kimya və s. sahələri təmsil edən mütəxəssislər bir araya gələrək, *"Software Development Lifecycle"* anlayışı, Azərbaycanda bu sahənin inkişafı və gələcəyi mövzusunda müzakirələr apardılar.

Vüsal Şahbazovun (*Azerbaijan Testing Board*) moderatorluğu ilə keçən tədbirdə Anar Məmmədov (*ULTRA İT*), Barış Sarıalioğlu (*Keytorc*), Cavid Kərimov (*Azercell*), Emil İsmayılxanov (*Azercell*), İlham Seyidnurov (*SOTEQA*), Sahil Qasımov (*Cybernet LLC*) mövzuya aid təqdimatlarla çıxış etdilər.

## ÇİN DİLİNDƏ OLAN KİTABLARIN SƏRGİSİ

Aprelin 14-də Kitabxana İnformasiya Mərkəzi (KİM) Xəzər Universitetinin Mərkəz kampusunda Çin kitablarının sərgisini keçirdi. Sərgidə Çin ədəbiyyatı, fəlsəfəsi, mədəniyyəti və dilinə aid kitablar nümayiş olundu. KİM-in əməkdaşı Səidə Orucova kitablar haqqında biblioqrafik məlumat verdi.

Tədbirdən əvvəl, dərs zamanı Çin dili müəllimi Luna Zhougun yardımı ilə tələbələr kitablarla yaxından tanış olmuş, onlar haqqında ətraflı məlumat almışdılar.

## EXHIBITION OF BOOKS IN CHINESE

On April 14, the Library-Information Center (LIC) held an exhibition of books in Chinese at Khazar University's downtown campus (122 Bashir Safaroghlu St). The exhibition included Chinese books on literature, philosophy, culture, and language. Saida Orujova, staff member of the LIC, shared information about the books on display.

The event was interesting for students who participated. Before the event, Chinese language instructor Luna Zhougun had introduced students to the books and had given them detailed information.

## TƏLƏBƏLƏR TORPAQŞÜNASLIQ VƏ AQROKİMYA İNSTİTUTUNDA

Aprelin 6-da Təhsil fakültəsinin tələbələri Coğrafiya və ətraf mühit departamentinin təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Torpaqşünaslıq və Aqrokimya İnstitutunda oldular.

İnstitutun direktoru professor Əlövsət Quliyev tələbələrlə görüşdü, onların suallarını cavablandırdı, gənclərə təklif və tövsiyələrini verdi.

Sonra tələbələr Torpaqların genezisi, coğrafiyası və kartoqrafiyası laboratoriyasının rəhbəri akademik Məhərrəm Babayevlə görüşdülər. Akademik tələbələrə laboratoriyanın tarixi, burada görülən işlər, torpaq tipləri haqqında geniş məlumat verdi.






## FULBRİGHT İŞTİRAKÇISI MÜHAZİRƏ OXUDU

Aprelin 9-da Coğrafiya və ətraf mühit departamentinin təşəbbüsü ilə *Fulbright* proqramı iştirakçısı Dr. Jeremy Tacsh Təhsil fakültəsinin tələbələri üçün “Arktika resursları uğrunda mübarizə” mövzusunda mühazirə oxumuşdur.

## FULBRIGHT SCHOLAR GIVES GUEST LECTURE

On April 9, Fulbright Scholar Dr. Jeremy Tacsh gave a guest lecture on the topic of “*Contesting the Arctic: Politics and Imaginaries in the Circumpolar North”* to students of the School of Education. The lecture was coordinated by the Department of Geography and Environment.



## TƏHSİL NAZİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ



Aprelin 15-də Xəzər Universitetində Karyera Mərkəzinin təşəbbüsü ilə Təhsil Nazirliyinin nümayəndələrinin tələbələrlə görüşü keçirildi. Görüşdə cari ilin mayn 23-də keçiriləcək Azərbaycan Əmək Sərgisi haqqında geniş məlumat verildi.

Nazirliyin nümayəndələri müraciət forması, sənədlərin doldurulması üçün lazım olan qaydaları izah edib, sualları cavablandırdılar.

## QRAFİK DİZAYN TRENİNQİ

2014-cü il noyabrın 11-dən etibarən hər həftənin şənbə günləri Xəzər Universiteti "Techno Club" tərəfindən "Neftçilər" kampusunda tələbələr üçün treninq keçirilir. Universitetə dəvət olunmuş peşəkar dizayner Kamran İbrahimlinin keçirdiyi treninqdə dizaynerlik, qrafik dizayn barədə məlumat verilir, bu sahəyə aid olan proqramlarla işləmə bacarıqları aşılanır. Tələbələr treninqi bitirdikdən sonra *Adobe Photoshop, Premiere, Corel Draw, Sony Vegas* və başqa montaj, dizayn proqramlarına aid lazımi biliklərə yiyələnəcəklər.

Treninqin 2-ci hissəsi növbəti tədris ilində başlayacaq və burada tələbələr *HTML, CSS* və başqa veb-developinqə aid proqram və proqram dilləri barədə bilik əldə edəcəklər.

"Techno Club" tələbələr üçün İT və kompüter sahəsində yeni treninqlərin və görüşlərin keçirilməsini planlaşdırır.

İrad və təkliflərinizi "Khazar University / Techno Club" facebook səhifəsinə yaza bilərsiniz.

## ƏMƏKDAŞLARIMIZ GÜRCÜSTANDA

Aprelin 13-14-də TEMPUS layihəsi çərçivəsində İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində "Ömür boyu təhsil – universitetlərin xüsusi rolunun gücləndirilməsi" adlı təqdimat konfransı keçirildi. Konfransda Xəzər Universitetinin əməkdaşları Ülkər Bayramova və Rəşad Xalıqov iştirak etdilər.

Konfransda Azərbaycan, Gürcüstan, İsveç, Almaniya, Avstriya, Estoniya və Ermənistandan olan partnyor universitetlərin əməkdaşları iştirak edirdilər. Tədbirdə Gürcüstanın partnyor olamayan digər universitetlərindən də nümayəndələr təmsil olunurdular.

Konfransda Xəzər Universitetinin əməkdaşı Ülkər Bayramova "Xəzər Universiteti Ömür boyu Təhsiıl İnstitutu kimi" adlı təqdimatla çıxış etdi.

Konfrans partnyor universitetlərin "Ömür boyu təhsil sahəsində gələcək əməkdaşığına dair" bəyannaməsinin imzalanması ilə başa çatdı.

## KHAZAR STAFF IN GEORGIA

On April 13-14, Khazar University administrative staff members Ulker Bayramova and Rashad Khaligov visited Georgia as part of the Strengthening the Specific Role of Universities as Lifelong Learning Institutions (SSRULLI) TEMPUS Project coordinated by Ivana Javakhisvili Tbilisi State University, Georgia. Partner universities from Azerbaijan, Georgia, Sweden, Germany, Austria, Estonia and Armenia participated in the event along with other universities from Georgia. At the conference, Ulker Bayramova made a presentation on "Khazar University as a Lifelong Learning Institution."

At the end of the event, a declaration was signed among partner universities.

## MÜƏLLİMİMİZ FƏLSƏFƏ DOKTORU DİPLOMU ALDI

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi İlahə Qurbanovaya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən filologiya üzrə fəlsəfə doktoru diplomu təqdim edilmişdir.

Müəllimimizi təbrik edir və uğurlar diləyirik.

## "XƏZƏR"İN TƏDBİRİ İCTİMAİ TV-DƏ İŞIQLANDIRILDI

Aprelin 16-da Xəzər Universitetində Tempus layihəsi çərçivəsində "Ömür boyu təhsil – universitetlərin xüsusi rolunun gücləndirilməsi" adlı seminar keçirildi. Tədbir Xəzər Universitetinin "Neftçilər" kampusunda baş tutdu.

İctimai TV-nin "Xəbərlər" buraxılışının əsas blokunda tədbir haqqında məlumat verildi.

Xəbərə aşağıdakı linkdə baxa bilərsiniz:

*http://www.kalibri.az/viewhr.php?z=2&v=e58fd5645f37f71e846887ee7516190c&m=1&c=MzMz#Kalibri*



# DÜNYA MƏDƏNİ İRSİNİN NADİR İNCİSİ

Aprelin 17-də Naxçıvan Dövlət Universitetində "Kitabi-Dədə Qorqud" Avropada" mövzusunda elmi konfrans keçirilmişdir. Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsinin alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyi münasibəti ilə keçirilən konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq, dastanın tədqiqinin və təbliğinin əhəmiyyətindən danışmışdır.

Universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, fəlsəfə doktoru, dosent Qurban Qurbanlı "Kitabi-Dədə Qorqud"un dünya dillərinə tərcüməsi, nəşri və tədqiqi tarixindən" mövzusunda məruzə ilə çıxış etmişdir. Digər məruzə və çıxışlarda da "Dədə Qorqud"un Rusiya, Almaniya, Fransa və İngiltərədə tərcüməsi, çapı və tədqiqi məsələlərinə toxunulmuşdur.

Konfransın sonunda Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri dastandan parçaları Azərbaycan və dünya dillərində səsləndirmişlər.

## "KİTABİ-DƏDƏ QORQUD"UN ALMANİYADA İLK TƏRCÜMƏSİ VƏ NƏŞRİNİN 200 İLLİYİ



## RUMINİYANIN FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ NDU-DA

Rumıniya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində aprelin 20-də Naxçıvan Dövlət Universitetində də olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov səfirə universitet haqqında ətraflı məlumat verib.

Səfir Daniel Kristian Çiobanu Rumıniyanın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri olduğunu, möhkəm fundament üzərində qurulan bu əməkdaşlığın bu gün də uğurla davam etdirildiyini vurğulayıb. Görüşdə Rumıniya ali məktəbləri ilə tələbə mübadiləsi, virtual əməkdaşlığın inkişafı, onlayn simpozium və konfransların təşkili məsələləri müzakirə olunub, simvolik hədiyyələr təqdim olunub.

Universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin müəllim və tələbələri ilə görüş zamanı Daniel Kristian Çiobanu "Azərbaycan – NATO əlaqələri" mövzusunda məruzə edib. Səfir vurğulayıb ki, NATO Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında ədalətli həllinin tərəfdarıdır. Rumıniyalı səfir ölkəsinin NATO-nun Azərbaycandakı əlaqələndiricisi kimi gördüyü işlərdən də danışıb.

Görüşün sonunda səfir tələbələrin suallarını cavablandırıb.

*Mehriban Sultan,*
*NDU Mətbuat şöbəsinin müdiri*





ИНСТИТУТ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ им. Е.Т. ГАЙДАРА

XƏZƏR UNİVERSİTETİ BAKI 1991

ФОНД ЕГОРА ГАЙДАРА

## Гайдаровские чтения

# «Перспективы развития исламского банкинга на постсоветском пространстве»





# XƏZƏR UNİVERSİTETİNDƏ QAYDAR MƏCLİSİ TƏŞKİL EDİLDİ



Aprelin 17-də Yeqor Qaydar Fondu, Y.T.Qaydar adına İqtisadi Siyasət İnstitutu və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə universitetdə "Postsovet məkanında İslam bankçılığının inkişaf perspektivləri" mövzusunda konfrans keçirildi.

Giriş sözü söyləyən universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbirin tanınmış iqtisadçı və dövlət xadimi Yeqor Qaydarın xatirəsinə həsr olunduğunu və bunun Azərbaycanda ilk dəfə məhz Xəzər Universitetində təşkil edildiyini xüsusi vurğuladı.

Konfransda Rusiyanın tanınmış iqtisadçıları, İslam bankçılığı üzrə ekspertlər, eyni zamanda, Azərbaycanın bu sahədəki ekspertləri hazırkı mərhələdə İslam bankçılığının bütövlükdə postsovet məkanı üçün aktuallığını vurğuladılar.

Qeyd olundu ki, Qaydar Məclisinin Azərbaycanda təşkili davamlı xarakter daşımalı, gələcəkdə də belə tədbirlər təşkil edilməlidir.







ИНСТИТУТ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ им. Е.Т. ГАЙДАРА

XƏZƏR UNİVERSİTƏSİ 1991 BAKI

ФОНД ЕГОРА ГАЙДАРА



## Гайдаровские чтения

# «Перспективы развития исламского банкинга на постсоветском пространстве»

Организаторы:
Фонд Егора Гайдара (Россия);
Институт экономической политики имени Е.Т. Гайдара (Россия);
Университет Хазар (Азербайджан)







# GAIDAR INSTITUTE CONFERENCE AT KHAZAR

On April 17, the Yegor Gaidar Fondation, the Y.T.Gaidar Institute for Economic Policy of Russia and Khazar University jointly held a conference entitled "Development Prospects for Islamic Banking in the Post-Soviet Area."

The conference was opened by Professor Hamlet Isaxanli, Founder of the University and Chairman of its Board of Directors and Trustees. He emphasized that this conference was the first of its kind in Azerbaijan. The conference was dedicated to the memory of Yegor Gaidar, well-known economist and public servant.

Speeches at the conference were made by well-known economists of Russia and experts on Islamic Banking, who stated the relevance of Islamic Banking for the Post-Soviet Area.

It was noted at the event that it would be desirable for the Gaidar Institute to continue its activities in Azerbaijan with the organization of similar events.



ИНСТИТУТ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ им. Е.Т. ГАЙДАРА

XƏZƏR UNİVERSİTETİ 1991 BAKI

ФОНД ЕГОРА ГАЙДАРА






## NARKOMANİYA ƏLEYHİNƏ SEMİNAR

Aprelin 10-da Xəzər Universitetində Sosial Məişət Problemlərinin Elmi Araşdırma Mərkəzi tərəfindən "Narkotik asılılıq" mövzusunda interaktiv seminar keçirildi. Tədbiri giriş sözü ilə açan Humanitar və sosial elmlər fakültəsinin dekanı dosent Cabir Xəlilov mərkəzin planlarını və əsas məqsədlərini auditoriyaya açıqladı. Mərkəzin təsisçisi, Xəzər Universitetinin 2-ci kurs tələbəsi Mirağa Bağırov mərkəzin yaranmasında Biologiya elmləri departamentinin müdiri İradə Xəlilovanın və Humanitar və sosial elmlər fakültəsinin dekanı dosent Cabir Xəlilovun böyük rolu olduğunu qeyd etdi.

Seminarda XX-XXI əsrin bəşəriyyət əleyhinə ən qəddar silahına çevirilmiş narkotik maddələrin növləri, onların insan psixikasına təsiri və insan orqanizmində yaratdığı fəsadlar müzakirə olundu.

Seminarın sonunda narkotik vasitələrin nümunələri iştirakçılara nümayiş etdirildi.

## XƏZƏR UNİVERSİTETİNİN TƏDBİRİ HAQQINDA *ECHO.AZ* PORTALINDA MƏQALƏ

Aprelin 17-də Xəzər Universitetində Qaydar adına İqtisadi Siyasət İnstitutu (Rusiya) ilə birgə "Postsovet məkanında İslam bankçılığının inkişaf perspektivləri" mövzusunda konfrans keçirildi. Növbəti gün konfrans haqqında ***echo.az*** xəbər portalında məqalə dərc olundu.

Məqalə ilə bu linkdə tanış ola bilərsiniz: *http://www.echo.az/article.php?aid=82177*

## BAŞ PSİXİATRIN İŞTİRAKI İLƏ SEMİNAR

Aprelin 18-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə Azərbaycanın baş psixiatrı Gəray Gəraybəylinin təqdimatında "Təşviş və həyəcan pozuntuları və effektiv tədbirlər" haqqında seminar keçirildi.

Seminarda maraqlı mövzulara toxunuldu. G. Gəraybəyli tələbələri maraqlandıran sualları cavablandırdı.

## KALİFORNİYA UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ "XƏZƏR"DƏ

Aprelin 20-də Kaliforniya Universitetinin (San Dieqo) nümayəndəsi Xəzər Universitetində Beynəlxalq Əlaqələr Ofisinin əməkdaşı ilə görüşüb.

Kaliforniya Universitetinin Xarici Əlaqələr və Partnyor İnkişafı Departamentinin meneceri Qvendolin Quzman Roz universitetin ingilis dili, sertifikat və digər proqramlarını təqdim etdi.

Beynəlxalq Əlaqələr üzrə prorektor assistenti Turan Cəfərova Xəzər Universiteti, fakültələr və təklif olunan proqramlar, həmçinin universitetin Beynəlxalq Təqaüd Proqramı haqqında məlumat verdi.

Gələcək əməkdaşlıq və tələbə mübadiləsi barədə fikir mübadiləsi aparıldı.

## UNIVERSITY OF CALIFORNIA REPRESENTATIVE AT KHAZAR

On April 20, a representative of the University of California, San Diego met with the International Affairs Office staff.

Gwendolyne Guzman Rose, Manager, External Relations and Partner Development, presented programs offered by the University of California, San Diego, particularly English Language programs, university programs, and certificate programs.

Turan Jafarova, Assistant to the Vice Rector for International Affairs, gave a presentation about Khazar University, its schools and programs, as well as Khazar University's International Scholarship Program.

Hopes for future cooperation and student exchange were expressed.

## "TÜRKİYƏ VƏ 24 APREL" MÖVZUSUNDA ELMİ SEMİNAR

Aprelin 21-də Xəzər Universitetinin Türk dünyası araşdırmaları mərkəzində Tarix və arxeologiya departamentinin təşəbbüsü ilə "Türkiyə və 24 aprel" mövzusunda seminar keçirildi. Seminarda departamentin müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru Roza Arazova, departamentin müəllimləri, tarix elmləri üzrə fəlsəfə doktorları – Ülviyyə İbrahimova, Araz Aslanlı, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadə, universitetin Humanitar və sosial elmlər və Təhsil fakültələrinin tələbələri iştirak edirdilər.

R. Arazova və A. Aslanlı giriş nitqi ilə çıxış etdilər. Sonra məruzələr dinlənildi. Türkiyənin Yalova Universiteti nəzdindəki Münaqişələrin həlli mərkəzinin əməkdaşları – Adem Yıldırım "20-ci əsrin əvvəllərində Anadoluda erməni problemi və qətliamlar", Dilruba Kurut "1974-cü il Kipr barış hərakatı", Emine Limon "ASALA terroru" və Elif Sak "Türkiyənin ictimai diplomatiyası" haqqında məruzə etdilər.

Sonda tələbələri maraqlandıran suallara cavab verildi. Xəzər Universitetinin İctimaiyyətlə əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli qonaqlara hədiyyə təqdim etdi.





## ACADEMIC SEMINAR ON "TURKEY AND APRIL 24TH"

On April 21, 2015, the Khazar University Turkic World Research Center and the Department of History and Archeology organized an academic seminar on "Turkey and April 24th." Participants in the seminar included Dr. Roza Arazova, head of the Department of History and Archeology; Drs. Ulviyya Ibrahimova and Araz Aslanli, instructors of the same department; Dr. Mukhtar Hajizada, Head of the Department of Political Science and International Relations; and students of the School of Humanities and Social Sciences as well as the School of Education.

The event was opened by Dr. Roza Arazova and Dr. Aslan Aslanli. Then lectures were presented by employees of the Conflict Solutions Center operating under Yalova University of the Turkish Republic. Adem Yildirim spoke about "Armenian Problems in Anatolia in the Early 20th Century;" Dilruba Kurut spoke on "Reconciliation Movement in Cyprus in 1974;" Emine Limon spoke on "ASALA Terror' and Elif Sak spoke on "Turkey's Public Diplomacy."

Later the lecturers answered students' questions. Alovsat Amirbeyli, Director of Public Relations and Media, gave gifts to the presenters.



# LAYİHƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ TƏLİMİ

Aprelin 21-dən Xəzər Universitetində "Layihə iştirakçılarının bacarıqlarının artırılması" TEMPUS layihəsi çərçivəsində 3 günlük "Layihələrin inkişaf etdirilməsi" təlimi keçirilmişdir. Təlim layihə çərçivəsində hazırlıq keçmiş Xəzər Universiteti və Bakı Dövlət Universitetinin əməkdaşları tərəfindən Avstriyanın *"die Berater" Unternehemensberatung GmbH* şirkətinin nümayəndəsi Bienzle Holgerin rəhbərliyi ilə həyata keçirilmişdir.

Təlimdə hər iki universitetin 30-dan çox doktorantura tələbəsi, əməkdaşı və layihə meneceri iştirak etmişdir.











# PROJECT DEVELOPMENT TRAINING

Beginning on April 21, a 3-day training on Project Development was held at Khazar University within the Project Actors Capacity Training Tempus Project. The training was conducted by administrative staff members of Khazar University and Baku State University who were trained within the project. The training is delivered under the leadership of Mr. Bienzle Holger, Representative of "die Berater" Unternehemensberatung GmbH, Austria. He also led several sessions, and provided consulting to trainers and trainees. In total more than 30 PhD students, employees, and project managers of both universities were trained during the session.











## MUZEYLƏRƏ EKSKURSİYA

Aprelin 18-də “Beynəlxalq abidələr və tarixi yerlər günü” münasibətilə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tabeliyində fəaliyyət göstərən bütün muzeylərdə “açıq qapı” günü elan edilməsi ilə əlaqədar Təhsil fakültəsinin tarix və coğrafiya müəllimliyi ixtisasının III kurs tələbələrinin muzeylərə ekskursiyası təşkil olunmuşdur.

## TM PARLAMENTİNİN NÖVBƏTİ İCLASI

Aprelin 19-da Xəzər Universitetinin Mərkəz kampusunda Tələbə Məclisi (TM) Parlamentinin növbəti iclası keçirildi. İclasda Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov parlamentin gündəliyində olan məsələlər haqqında çıxış edərək, Tələbə Məclisinin Bəyannaməsində dəyişikliklər, final imtahanlarında tələbələr tərəfindən nəzarət sisteminin tətbiq olunması, bilik və idman yarışları barəsində parlament üzvləri ilə geniş müzakirələr apardı.

Eləcə də, 2014- cü ilin oktyabr, 2015-ci ilin mart aylarında parlamentə yeni seçilmiş tələbələr (25 nəfər) iclasın açıq mövzu hissəsində universitetdə həyata keçirmək istədikləri ideyaları bölüşdülər.



## “LİDERLİK VƏ UĞUR FAKTORLARI” MÖVZUSUNDA TƏQDİMATLAR KEÇİRİLDİ

Aprelin 16-da Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin birinci kurs tələbələri “Liderlik və uğur faktorları” mövzusunda hazırladıqları layihələrin təqdimatını keçirdilər. Təqdimatda Rauf Əliyev (A+A şirkətlər qrupunun rəhbəri) və Zərifə Salahova (Miniatür kitab muzeyinin yaradıcısı və direktoru) iştirak etdilər.

Tələbələr tarixi şəxsiyyətlər və qadınların biznesdə rolu barədə hazırladıqları layihələri təqdim etdilər. Qonaqlar tələbələrə tövsiyələrini bildirdilər.

2014-cü ildə Miniatür Kitab Muzeyi Ginnesin Rekordlar Kitabına daxil edilmişdir. R. Əliyev isə Azərbaycan dövləti tərəfindən medalla təltif olunmuşdur. Tələbələr bu münasibətlə qonaqları təbrik etdilər.

## “ELM ÜÇBUCAĞI” PROQRAMININ VERİLİŞİ

Aprelin 12-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının “Elm üçbucağı” proqramının növbəti verilişi oldu. Veriliş “Qloballaşma və onun hərəkətverici qüvvələri” mövzusuna həsr olunmuşdu.

Universitetin əməkdaşları da dinləyici qismində verilişdə iştirak edirdilər.

525.az 525-ci qəzet

## “XƏZƏR”İN MÜƏLLİMİNİN MƏQALƏSİ “525-Cİ QƏZET”DƏ

Aprelin 18-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, tarix elmləri doktoru Nəsiman Yaqublunun “525-ci qəzet”də “Ermənilər türklərə qarşı: Rusiya arxivlərinin izi ilə” adlı məqaləsi dərc olunmuşdur.

## “NARKOTİK ASILILIQ” MÖVZUSUNDA SEMİNAR

Aprelin 21-də ADA Universitetində Sosial Məişət Problemlərinin Elmi Araşdırma Mərkəzi tərəfindən “Narkotik asılılıq” mövzusunda interaktiv seminar keçirildi. Tədbiri giriş sözü ilə açan mərkəzin təsisçisi, Xəzər Universitetinin 2-ci kurs tələbəsi Mirağa Bağırov dəvətə görə, başda Hafiz Paşayev olmaqla, ADA Universitetinin akademik heyətinə minnətdarlığını bildirdi.

Seminarda narkotik maddələrin yaratdığı fəsadlar müzakirə edildi. Seminar zamanı narkotik vasitələrin nümunələrinin nümayişi auditoriyanın marağına səbəb oldu.

Seminarın sonunda iştirakçılara sertifikat verildi.




Aprelin 2-də Beynəlxalq Əlaqələr Ofisi və Beynəlxalq Təhsil üzrə Amerika Şurasının Azərbaycandakı ofisi Karneqi Tədqiqat Proqramı haqqında təqdimat təşkil etmişdir. Proqram universitet müəllimləri, tədqiqatçılar, maqistr və doktorant tələbələr üçün ABŞ-da sosial və humanitar elmlər sahəsində 4 ay ərzində tədqiqat aparmaq imkanı verir.

Avrasiya və Şərqi Avropa üzrə Milli Araşdırmalar Şurası (ABŞ) və Beynəlxalq Təhsil üzrə Amerika Şurasının Avrasiya üzrə aparıcı mütəxəssisi Aleksey Xarlamov proqram, proqrama müraciət proseduru və maliyyə dəstəyi haqqında ətraflı məlumat verdi və iştirakçıların suallarını cavablandırdı.

Karneqi Tədqiqat Proqramı – Avrasiya və Şərqi Avropa üzrə Milli Araşdırmalar Şurası (ABŞ) və Beynəlxalq Təhsil üzrə Amerika Şurasının proqramıdır və Nyu - Yorkun Karneqi Korporasiyasının qrantı tərəfindən dəstəklənir.

On April 2nd, the International Affairs Office organized a presentation about the Carnegie Research Fellowship Program in collaboration with American Councils for International Education in Azerbaijan. The program provides opportunities for university faculty, researchers, advanced graduate students, and scholars in the social sciences and humanities to conduct research in the USA for four months.

Alexey Kharlamov (Senior Program Officer for Eurasia at National Council for Eurasian and East European Research (USA) and American Councils for International Education) provided detailed information about the program, application procedure, and financial provisions as well as answering participants' questions.

Carnegie Research Fellowship Program is a Program of the National Council for Eurasian and East European Research (NCEEER) in conjun-ction with the American Councils for International Education: ACTR/ACCELS and supported by a Grant from the Carnegie Corporation of New York.

## TÜRKİYƏLİ MÜTƏXƏSSİS “XƏZƏR”DƏ

Aprelin 7-də Türkiyənin İzmir Katip Çelebi Universitetinin Jurnalistika fakültəsinin bölüm başqanı M.Soydan Xəzər Universitetinin jurnalistika ixtisasında təhsil alan tələbələri üçün seminar keçirdi. M.Soydan birinci seninarda sənədli qısametrajlı filmlərin hazırlanması haqqında məlumat verdi.

Sonra tələbələr İzmir Katip Çelebi Universitetinin Jurnalistika fakültəsinin tələbələrinin çəkdikləri qısametrajlı filmlərə baxdılar. Tələbələr sənədli filmlərə həsr olunmuş birinci seminarda “Xala”, “Mada” və “Siyah” adlı qısametrajlı filmlərə tamaşa etdilər.

Filmlərə baxdıqdan sonra M. Soydan tələbələrin suallarını cavablandırdı.

M. Soydanın qısametrajlı bədii filmlərə həsr olunan ikinci seminarı aprelin 9-da olacaq.

Qeyd edək ki, M. Soydanın səfəri Xəzər Universitetinin də qoşulduğu Mevlana proqramı çərçivəsində baş tutmuşdur.

## TURKISH JOURNALISM SPECIALIST VISITS KHAZAR

On April 7, Associate Professor Dr. Murat Soydan, Head of the School of Journalism of Izmir Katip Celebi University (Turkey) held a seminar for students majoring in journalism at Khazar University. Dr. Soydan taught the students about making short documentary films.

Then students watched several short films that had been made by students of the School of Journalism of Izmir Katip Celebi University. The students watched short films entitled “Khala,” “Mada” and “Siyah.” After the films, Associate Professor Dr. Murat Soydan answered students' questions.

On April 9th, Dr. Murat Soydan will give a second seminar, this time about short artistic films. Dr. Soydan's visit to give these seminars is part of the Mevlana exchange program.



## FRANSA İNSTİTUTUNUN NÜMAYƏNDƏSİ "XƏZƏR"DƏ

Aprelın 3-də Fransanın Paul Bocuse İnstitutunun magistr tələbələrin qəbulu üzrə meneceri Myriam Marescot Xəzər Universitetində oldu, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə Xəzər Universitetində açılacaq turizm menecmenti ixtisası, Paul Bocuse İnstitutunun və Xəzər Universitetinin bu sahədə əməkdaşlıq perspektivləri kimi məsələlər müzakirə olundu.

Gələcəkdə bu söhbəti davam etdirmək üçün qonaq professor H.İsaxanlını Fransaya qonaq dəvət etdi.

## REPRESENTATIVE OF FRENCH INSTITUTE VISITS KHAZAR

On April 3rd, Myriam Marescot, Admissions officer for master's programs at Institut Paul Bocuse of France, visited Khazar University and met with Prof. Hamlet Isaxanli, the university's founder and Chairman of the Board of Directors and Trustees. During the meeting, they discussed the future Tourism Management program which will open at Khazar University as well as potential partnership opportunities in this field between Institut Paul Bocuse and Khazar university. Ms. Marescot invited Prof. Isaxanli to visit the university in France to continue their discussion.

## TƏLƏBƏLƏR TORPAQŞÜNASLIQ MUZEYİNDƏ

Aprelin 6-da Təhsil fakültəsinin tələbələri "Dünyanın iqtisadi və sosial coğrafiyası" fənni çərçivəsində Dr.Ramil Sadıqovla birlikdə Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq muzeyində (*Soil Museum*) olmuşlar.

Daha sonra tələbələr Azərbaycanın torpaqşünaslıq üzrə aparıcı alimləri ilə görüşmüş və fikir mübadiləsi aparmışlar.

# TƏLƏBƏLƏR TİBB MƏRKƏZİNİN DİAQNOSTİK LABORATORİYASINDA TƏCRÜBƏ KEÇDİLƏR






Aprelin 7-də Təhsil fakültəsinin bir qrup tələbəsi “Sağlam Ailə” Tibb Mərkəzinin diaqnostik laboratoriyasında təcrübə dərsi keçmişlər. Təcrübə dərsində Biologiya elmləri departamentinin rəhbəri fəlsəfə doktoru İradə Xəlilova və tibb mərkəzinin laboratoriyasının işçiləri elmi tədqiqat və klinik diaqnostikada istifadə edilən metodlarla, cihazlarla və onların işləmə prinsipləri ilə tələbələri tanış etmişlər.

Laboratoriyanın işçiləri tələbələrə biomaterialın kodlaşdırılması və verilməsi qaydalarını izah etmiş, onlara biokimyəvi analizlərin, koaqulyasiya, mikroskopiya, immunoferment analiz və zəncirvari polimeraza reaksiyasının (PZR) aparılmasını nümayiş etdirmiş, tələbələrin suallarını cavablandırmışlar.



## XƏZƏR UNİVERSİTETİ TÜRKİYƏ UNİVERSİTETLƏRİNİN SƏRGİSİNDƏ

Aprelin 4-də "Hilton" otelində Türkiyə universitetlərinin təhsil sərgisi keçirildi. Sərgi Azərbaycanda fəaliyyət göstərən "Akademi Group" tərəfindən təşkil edilimşdi. Sərgidə Türkiyənin 30-a yaxın universiteti təmsil olunurdu.

Sərgidə iştirak edənlərin sayı əvvəlki illərlə müqayisədə xeyli çox idi. Türkiyə universitetləri ilə yanaşı, sərgidə Azərbaycandan yalnız Xəzər Universiteti iştirak edirdi. Xəzər Universitetinin bakalavr, magistr və doktor proqramları ilə bağlı sualları universitetin Karyera mərkəzinin əməkdaşı Ləman Əliyeva cavablandırdı.

Sərginin açılışında Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdi. O, Türkiyədən gələn universitetlərin nümayəndələri və Türkiyənin Bakıdakı müşaviri ilə görüşdü. Sərgidə Türkiyənin İstanbul, Bilkent, Sabancı, Fatih, Kahramanmaraş Sütçü İmam və digər universitetləri iştirak edirdi. Sərginin 1-ci günü "Akademi Group"un rəhbərliyi tərəfindən Meridian Sarayında türkiyəli qonaqların şərəfinə ziyafət verildi. Ziyafətdə Xəzər Universitetinin oğlanlardan və qızlardan ibarət rəqs qruplarının rəngarəng rəqsləri və İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Musa Abdullanın solo çıxışı qonaqlar tərəfindən alqışlarla qarşılandı.

"Akademi Group"un rəhbərliyi sərginin işində fəal iştiraka görə Xəzər Universitetinin rəhbərliyinə və musiqi kollektivinin nümayəndələri Zülfiyyə Yakarışıka, rəqs müəllimləri Telman Əliyevə və Səbinə İsmayılovaya təşəkkür etdi.

# TARİXÇİ ALİMLƏR "XƏZƏR"DƏ





Aprelin 9-da Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşəbbüsü ilə Təhsil fakültəsi tarix müəllimliyi ixtisası tələbələrinin Milli Azərbaycan Tarixi Muzeyinin Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi-ekspozisiya şöbəsinin əməkdaşı, Tovuz Neolit dövrü arxeoloji ekspedisiyasının üzvü Yaqub Məmmədovla görüşü keçirildi. Görüşdə S.Əhmədov "Simvollar, rəmzlər, emblemlər", Y.Məmmədov "Paleoantropologiya nədir?" mövzularında məruzə etdilər.

Məruzəçilər tələbələri maraqlandıran məsələlərlə bağlı ətraflı izahat verdilər.






## TƏLƏBƏLƏRİN SOCAR ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜ

Aprelin 8-də Xəzər Universiteti Karyera mərkəzinin təşəbbüsü ilə Mühəndislik və tətbiqi elmlər fakültəsi neft-qaz mühəndisliyi ixtisasının tələbələri ilə SOCAR Şirkəti nümayəndələrinin görüşü keçirildi. Görüşdə şirkətin nümayəndələri vakansiyalar, yay məktəbləri, qəbul qaydaları ilə bağlı təqdimat etdilər.

Tələbələr nümayəndələrə onları maraqlandıran məsələlərlə bağlı suallar verdilər və nümayəndələr sualları ətraflı şəkildə cavablandırdılar.

## STUDENTS MEET WITH SOCAR REPRESENTATIVES

On April 8, the Khazar University Career Center organized a meeting of students of the School of Engineering and Applied Sciences majoring in Petroleum Engineering with representatives of SOCAR. The visitors gave students information about current vacancies, summer schools, and application procedures.

Students also asked questions, which the representatives answered in detail.

## DEPARTAMENT MÜDİRİMİZ TİFLİS DÖVLƏT UNİVERSİTETİNDƏ

Aprelin 8-9-da İqtisadiyyat və menecment departamentinin müdiri fəlsəfə doktoru Ceyhun Məmmədov və departamentin müəllimi Könül Bayramova “Miqrasiya və ali təhsil – bilik və bacarıqların aşılanması” adlı Tempus layihəsinin Tiflis Dövlət Universitetində keçirilən yekun tədbirində iştirak etdilər.

C. Məmmədov Xəzər Universitetində fəaliyyət göstərən Miqrasiya Mərkəzində, İqtisadiyyat və menecment departamentində dunya iqtisadiyyatı və miqrasiya sahəsində tədris proqramının inkişafı ətrafında görülən işlər barəsində geniş məlumat verdi. O, həmçinin, tərəfdaş ölkələrin Miqrasiya Mərkəzində gördükləri birgə işlərin nailiyyətləri, perspektivləri və yaxın gələcəkdə regional şəbəkənin qurulması haqqında məsələləri müzakirə etdi. Miqrasiya Mərkəzinin əsas məqsədi üç miqrasiya mərkəzi arasında regional əməkdaşlığın yaradılmasıdır.

“Qafqaz” miqrasiya jurnalı şəbəkənin ilk əməkdaşlıq layihəsidir. Bu jurnal miqrasiya mövzusunda məlumat mübadiləsinə olan zərurətdən yaranıb və miqrasiya məsələləri haqqında məlumatları əhatə edir. Xəzər Universiteti və Qafqaz Universitetinin akademik heyəti tərəfindən birgə hazırlanan ölkə üzrə hesabat bu jurnalda 2015-ci ildə nəşr olunacaq.

Tədbirin sonunda “Appear – Avstriyanın Ali təhsil və inkişafın tədqiqi adlı yeni əməkdaşlıq proqramı” təqdim edildi və gələcəkdə əməkdaşlıq imkanları müzakirə olundu.

“Appear” – Avstriya və Avstriyanın bu sahədə əməkdaş ölkələrində yüksək ali təhsil müəssisələri arasındakı əməkdaşlığı dəstəkləyir. Tədris və tədqiqatın keyfiyyətinin yaxşılaşdırılması, ali təhsil müəssisələrində menecment və təşkilatçılığın yüksək səviyyəyə qaldırılması, milli və elmi münasibətlərin gücləndirilməsi bu tədbirin əsas məqsədi idi.

Tədbir son hesabatların müzakirəsi ilə yekunlaşdı.

# МЕЖДУНАРОДНЫЙ НАУЧНЫЙ МЕДИЦИНСКИЙ ЦЕНТР ИМЕНИ АКАДЕМИКА ЗАРИФЫ АЛИЕВОЙ И АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ХАЗАР НАМЕРЕНЫ СОТРУДНИЧАТЬ В ОБЛАСТИ НАУКИ И ОБРАЗОВАНИЯ

В Киеве 30 апреля 2015 года на совместном заседании Правления и Координационного совета организации Международный Научный Медицинский Центр имени академика Зарифы Алиевой единогласно принято решение о намерении установления прямых контактов с Азербайджанским Университетом Хазар. Планируется поездка официальной делегации Центра в Баку для обсуждения и подписания меморандума о взаимопонимании и сотрудничества с Университетом Хазар в области науки и образования.

Руководитель Международного Научного Медицинского Центра имени академика Зарифы Алиевой, профессор Айдын Салманов подробно информировал присутствующих об Университете Хазар. Было отмечено, что основателем и ректором университета является известный ученый и общественный деятель, доктор физикоматематических наук, профессор, поэт, писатель и публицист, председатель Совета директоров и попечителей, соучредитель школы «Дюня» Гамлет Исаханлы.

Университет Хазар – это первый частный ВУЗ Азербайджана и стран бывшего СССР. Он также первым ввёл обучение студентов на английском языке.

В университете работают более 200 научных работников и преподавателей; в их числе около 40 докторов наук, около 100 кандидатов наук (PhD), признанные ученые, деятели науки и искусства. Наряду с местными преподавателями, в университете трудятся приглашённые из университетов США, Европы и Азии зарубежные специалисты.

Университет имеет широкую материально-техническую базу. Здесь функционируют издательство, типография, научные и учебные лаборатории, издаются газеты и научные журналы. Фонд этой современной библиотеки содержит более 200 тысяч книг на азербайджанском, русском, английском, французском, немецком, персидском, турецком, арабском, японском, испанском, итальянском, китайском и других языках, десятки тысяч бумажных и электронных научных журналов. Согласно мнениям специалистов эта самая развитая библиотека в стране и самая богатая в кругу частных университетов Азербайджана.

В университете имеются 7 компьютерных центров и на каждых четырёх студентов приходится один компьютер.

Основной язык обучения – английский. Вместе с тем, слабо владеющие (или не владеющие) английским абитуриенты тоже могут поступить в Университет Хазар – они начинают с интенсивного обучения английскому языку. Лучшие студенты получают возможность продолжить образование в университетах США, Канады, Западной, Средней и Восточной Европы, Дальнего Востока. В настоящий момент более 15% студентов, обучающихся в Университете Хазар, составляют иностранцы.

Школа «Дюня» при Университете Хазар является одной из первых частных средних школ Азербайджана, где также функционируют подготовительные классы для детей от 3 до 5 лет.

16 января 2009 года Школа «Дюня» получила международный статус, пройдя аккредитацию организации İnternational Baccalaureate Organization (IBO). Занятия в 10 и 11 классах проводятся на английском языке на основе программы İBO.

Выпускники школы получают и диплом İBO и общегосударственный аттестат. Выпускников с дипломом İBO в качестве студентов принимают многие, в том числе и ведущие, университеты мира без экзаменов или после собеседования.

За годы существования университета различные журнальные и телевизионные опросы, опросы среди студентов и специалистов, исследования, проводимые негосударственными организациями, оценки международных комиссий, отзывы международных компаний объявляли Университет Хазар одним из лучших высших учебных заведений Азербайджана и более широких регионов, таких как Кавказ и Средняя Азия, Ближний Восток и Восточная Европа.

Международный научный Медицинский Центр имени Академика Зарифы Алиевой поздравляет профессора Гамлет Исаханлы и коллектив Университета Хазар за достигнутые успехи и надеется на долгосрочное и взаимовыгодное сотрудничество в области науки и образования, которое будет способствовать развитию украинско азербайджанских отношений.





Tempus

## The Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan (ESFIDIP)

**Tempus Project**







Aprelin 27-29-da Xəzər Universitetində “Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində yerli və Avropa partnyorlarının (Human European Consultancy - Niderland Krallığı; Lodz Universiteti – Polşa; Makedoniya Universiteti – Yunanıstan; Qraz Universiteti - Avstriya) iştirakı ilə görüş keçirildi. Görüş zamanı yerli partnyor universitetlər layihə çərçivəsində görülən işlər, Avropadakı partnyor universitetlərə səfərləri zamanı əldə edilən təcrübələr haqqında çıxış etdilər. Sonra layihə çərçivəsində hazırlanmış əsasnamə və “Təlimat qaydaları”nın hazırlanması barəsində müzakirələr oldu.

Görüşün ikinici günündə Avropa partnyorları Xəzər Universitetinin layihə üzrə təyin olunmuş heyəti və Beynəlxalq əlaqələr üzrə prorektor Fərda Əsədov ilə görüşdülər. Layihənin gedişatı haqqında fikir mübadiləsi aparıldı, qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları müzakirə olundu. Eyni vaxtda yerli partnyorlar arasında da görüş keçirildi və Avropalı partnyorların iştirakı ilə əsasnamənin son versiyası hazırlandı. Daha sonra Avropa partnyorları ilə gələcəkdə görüləcək işlər haqqında müzakirələr aparıldı.

Görüşün sonuncu günü layihə çərçivəsində hazırlanacaq “Təlimat qaydaları” və həyata keçiriləcək tədbirlər haqqında geniş fikir mübadiləsi edildi, sonra avropalı partnyorlar Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində oldular.



On April 27-29, a meeting for the Tempus project entitled “The Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan” (ESFIDIP) was held at Khazar University with the participation of local and international partners (Human European Consultancy - Netherlands; Lodz University – Poland; University of Macedonia – Greece; Graz University – Austria). During the meeting, local partner universities discussed the progress on the project so far, the experience they gained from their visits to European universities, and their expectations of the European partners. Then the participants discussed the regulations and training guidelines prepared as part of the project.

On the second day of the meeting, European partners held a meeting with the Khazar University project team and Farda Asadov, Vice President for International Affairs. They expressed their thoughts on the project's progress, challenges that have arisen and possible solutions. At the same time, local partners held a meeting to prepare a final draft of the charter with the participation of European partners. Later, European partners held a discussion about tasks that remain in the future.

On the last day of the meeting, a detailed discussion was held about the Charter prepared for the project as well as other future tasks.

At the end of the meeting, the European partners visited the Gala Archeological-Ethnographic Museum Complex.





## NEFT MÜHƏNDİSLİYİ TƏLƏBƏLƏRİ 20-Cİ TƏLƏBƏ ELMİ KONFRANSINDA



Aprelin 25-də Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin (ANGC) və Avropa Yer Alimləri və Mühəndisləri Assosiasiyasının (AYAMA) Azərbaycan bölməsinin birgə təşkilastçılığı ilə Azərbaycan Dövlət Neft Akademiyasında 20-ci Tələbə elmi konfransı kecirilmişdir. Konfrans 3 bölmə – Ümumi və neft-qaz geologiyası, Geofizika və Neft mühəndisliyi bölmələri üzrə təşkil olunmuşdu.

Xəzər Universiteti Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov konfransın açılışında iştirak etmişdir. Universitetin neft mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələri də konfransın işinə qatılaraq, fəallıq göstərmişlər. Q. Zeynalovun elmi rəhbərliyi ilə aparılmış tədqiqatlar əsasında Yannick Agbor (magistraturanın 1-ci kurs tələbəsi) "Şimal-şərqi Niger deltasının Y yatağının A quyusunda quyu karotajı və kern məlumatları əsasında gil-qumların petrofiziki qiymətləndirməsi", Arif İmanov (2-ci kurs) "Azərbaycanda palçıq vulkanlarının yerüstü hidrokarbon təzahürləri və onların neft və qaz yataqları ilə əlaqəsi", Kamran Abbasov (2-ci kurs) "Cənubi Xəzər çökəkliyinin Naxçıvan yatağında Aşağı Pliosen qumdaşılarının çökmə şəraiti və hidrokarbon perspektivliyi", Fərid Həsənov (2-ci kurs) "Bəndovan yatağının geoloji quruluşu və neft və qaz perspektivliyi" və departamentin müəllimi, fəlsəfə doktoru Nazim Nəsibovun elmi rəhbərliyi ilə Usama Ahmed Khand (magistraturanın 1-ci kurs tələbəsi) "Kapilyar strok sabun injeksiya vasitəsilə quyularda sulaşmanın qarşısının alınması", Rəşid Salmanov (3-cü kurs) "Hidrokarbon hasilatında ekoloji problemlər" mövzularında məruzələrlə çıxış etmişlər.

Konfransın sonunda Geofizika seksiyasında ən yaxşı elmi məruzəyə görə birinci yerin qalibi Xəzər Universitetinin tələbəsi Y. Agbor olmuşdur. Buna görə o və elmi rəhbəri Q. Zeynalov xususi hədiyyələrlə mükafatlandırılmışlar.

Bu münasibətlə tələbəmizi və departamentin əməkdaşlarını təbrik edir, onlara yeni uğurlar arzulayırıq.

## PETROLEUM ENGINEERING STUDENTS AT 20TH STUDENT ACADEMIC CONFERENCE

**EAGE**

**EROPEAN ASSOCIATION OF GEOSCIENTISTS & ENGINEERS**

On April 25th, the Azerbaijan Society of Petroleum Geologists (ASPG) and European Association of Geoscientists and Engineers (EAGE) held their 20th Student Academic Conference at Azerbaijan State Oil Academy. The conference included three sections: General and Petroleum Geology, Geophysics, and Petroleum Engineering. Associate Professor Gasham Zeynalov, the head of the Department of Petroleum Engineering at Khazar University, participated in the opening ceremony. He also brought a group of students from Khazar University who participated the conference. The following students under his academic supervision presented papers at the conference:

Yannick Agbor, first-year master student ("Petrophysical evaluation of shaly-sand based on well log and core data –Well A, Field Y, North Eastern Niger Delta"); Arif Imanov, second-year bachelor's student ("Hydrocarbon Seepage of mud volcanoes and their relation with oil and gas fields in Azerbaijan"), Kamran Abbasov, second-year bachelor's student ("Depositional environment of Lower Pliocene sandstones and hydrocarbon prospects of the Nakhchivan field, South Caspian Basin"), and Farid Hasanov, second-year bachelor's student ("Geological structure and oil and gas prospects of the Bandovan field").

Under the academic supervision of Dr. Nazim Nasibov, instructor for the department, the following students presented papers:

Usama Ahmed Khand, first-year master student ("De-liquefaction of loaded up wells through capillary string soap injection") and Rashid Salmanov, third-year bachelor's student ("Environmental problems of hydrocarbon production").

At the end of the conference, Y. Agbor was selected as presenter of the best lecture in the Geophysics section. For this reason, his supervisor G.Zeynalov was also awarded with a special gift. We congratulate our students and faculty members on their accomplishments.





Tələbələrimizin tədqiqatı və təqdimatı Xəzər Universiteti Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalobun və departamentin müəllimi, fəlsəfə doktoru Nazim Nəsibovun elmi rəhbərliyi ilə hazırlanmışdır







## TANINMIŞ İRAQ PROFESSORU "XƏZƏR"DƏ MÜHAZİRƏ OXUDU

Aprelin 27-də Beynəlxalq ofisin və Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə Mustansiriya Universiterinin (Bağdad, İraq) tanınmış professoru Dr. Əli Naşmi Həmidi Abbas Əl-Maliki Xəzər Universitetinin"Neftçilər" kampusunda tələbə və müəllim heyəti üçün mühazirə oxudu.

"Azərbaycan və İraq arasında tarixi münasibətlər" mövzusunda mühazirə iştirakçıların böyük marağına səbəb oldu. Dr. Ali Naşmi iki ölkə arasında diplomatik və digər münasibətlər, onların tarixi və hazırkı statusu haqqında danışdı. O, həmçinin, İraq xalqının hazırda üzləşdiyi çətinliklər haqqında və onların aradan qaldırılmasına dair fikirlərini də bölüşdü.

Mühazirə sual-cavab sessiyası ilə yekunlaşdı.

## RENOWNED IRAQI PROFESSOR DELIVERS LECTURE AT KHAZAR

On April 27, Dr. Ali Nashmi Hamidi Abbas Al-Maliki, a renowned professor from Mustansiriya University (Baghdad, Iraq), delivered a lecture for Khazar University students and faculty. The event was held on the Neftchilar campus of Khazar University. The lecture was jointly coordinated by the International Office and the Department of Political Science and International Relations.

The lecture, entitled "Historical Relations between Azerbaijan and Iraq," was of a great interest to all event participants. Dr. Ali Nashmi Hamidi Abbas Al-Maliki spoke about diplomatic and other relations between the two countries, their history and current status. He also covered the challenges currently faced by Iraqi people and provided his perspective on ways they could be addressed. The lecture ended with a question and answer session.



## KİNOREJİSSOR NAZİM RZA İLƏ GÖRÜŞ



Aprelin 25-də Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Mühəndislik və tətbiqi elmlər fakültəsi tələbələrinin tanınmış sənədli film rejissoru, "Neft və İkinci cahan savaşı" kitabının müəllifi Nazim Rza ilə görüşü keçirildi.

Dərs çərçivəsində keçirilən görüşdə Azərbaycan tarixinin əhəmiyyətli səhifələrini öz sənədli əsərlərində üzə çıxarmaq üçün dərin tədqiqatlar aparmış N.Rza tələbələrə neft tarixindən mühazirə oxudu, "Odlu məmləkət" filmi nümayiş olundu. Sonda o, tələbələri maraqlandıran sualları ətraflı cavablandırdı.

## KTTPS TEMPUS LAYİHƏSİ BU DƏFƏ QIRĞIZISTANDA İŞİNİ DAVAM ETDİRDİ

Aprelin 21-dən 23-dək Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova TEMPUS layihəsi çərçivəsində Qırğız Milli Universitetində "Keyfiyyətin təminatı üçün təhsil proqramlarının sənədləşməsi" (KTTPS) adlı yekun konfransda iştirak etmişdir.

Tədbirin məqsədi tərəfdaş universitetlərdə tədris proqramlarının keyfiyyətinin təminatı üçün layihənin nəticələrinin yayılması və KTTPS-in onlayn sənədləşmə sisteminin tətbiqində qarşıya çıxan problemlər və çətinliklər haqqında müzakirələrin aparılması idi.

L. Sotova layihənin nəticələrinin institusional səviyyədə strateji təsiri və əsas nəticələri, yerli layihə koordinatorları milli səviyyədə layihənin təsiri və Boloniya prosesinin tətbiqində TTPS modeli və proqram təminatı haqqında təqdimatla çıxış etmişlər

Tədbirin sonunda layihənin təsirinin və nəticələrinin davamlılığını təmin etmək barədə qərar müzakirə olunmuşdur.

## HEAD OF QUALITY ASSURANCE CENTER IN KYRGYZSTAN

On April 21-23, Lyudmila Sotova, Head of the Quality Assurance Center at Khazar University, participated in the final dissemination conference of the "Documentation for Quality Assurance of Study Programs" (DoQuP) Tempus project at Kyrgyz National University.

The aim of the event was the dissemination of the project results and final discussion about issues and challenges in the implementation of the DoQuP online documentation system for the quality assurance of study programs in partner universities.

Lyudmila Sotova made a presentation on the strategic impact of project results on the institutional level and main outcomes.

Local project coordinators made presentations on the impact of the project on the national level and the DoQuP model and software as a powerful instrument for the implementation of the Bologna process.

At the end of the event, a resolution for ensuring the sustainability of the project impact and results was discussed.




## TƏLƏBƏLƏR "SAĞLAM AİLƏ"NİN DİAQNOSTİK LABORATORİYASINDA TƏCRÜBƏ DƏRSİ KEÇDİLƏR

Aprelin 21-də Mühəndislik və tətbiqi elmlər fakültəsinin biotibbi mühəndislik ixtisası üzrə təhsil alan tələbələri "Sağlam ailə" Tibb Mərkəzinin diaqnostik laboratoriyasında təcrübə dərsi keçdilər. Təcrübə dərsində Biologiya elmləri departamentinin müəllimi fəlsəfə doktoru Səadət Xudaverdiyeva və tibb mərkəzinin laboratoriyasının işçiləri gələcəyin biotibbi mühəndislərini müasir mikroskopiya, PCR, immunoferment, immunofluoressent və s. tibbi diaqnostika avadanlıqlari ilə tanış etdilər. Tələbələrə bu və Bakıda fəaliyyət göstərən digər tibbi mərkəzlərdə mövcud olan və gələcəkdə istifadə olunacaq avadanlıqların istismarı üçün savadlı, daim biliklərini artıran biotibbi mühəndislərə böyük ehtiyac olduğu haqda məlumat verildi.

Tibb mərkəzinin işçiləri tələbələri maraqlandıran sualları cavablandırdılar. II kurs tələbələrindən Emil İsmayılov, Asiman Teymurlu, Aytən Niftəlizadə, İsmayıl Abbasov mərkəzlə tanışlıqdan sonra onlarda seçdikləri peşəyə qarşı marağın daha da artdığını bildirdilər.



## FUTZAL KUBOKUNUN 2-Cİ TURU KEÇİRİLDİ

Aprelin 26-da Tələbə Məclisinin təşkil etdiyi Futzal Kubokunun 2-ci turu keçirildi. Tur çərçivəsində 2 oyun keçirildi və nəticədə, Humanitar və sosial elmlər fakültəsinin komandası İqtisadiyyat və menecment fakültəsinin komandasını 7-3 hesabı ilə məğlub edərək, finala yüksələn ilk komanda oldu. Digər oyunda Mühəndislik və tətbiqi elmlər fakültəsinin komandası ümumi qaydalara riayət etmədiyinə görə, komandaya texniki məğlubiyyət verildi və Təhsil fakültəsinin komandası 3-0 hesabı ilə qalib elan olundu.

Xatırladaq ki, aprelin 19-da püşkatma nəticəsində keçirilən ilk turda Humanitar və sosial elmlər fakültəsinin komandası Mühəndislik və tətbiqi elmlər fakültəsinin komandasına 6-0, Təhsil fakültəsinin komandası isə İqtisadiyyat və menecment fakültəsinin komandasına 6-4 hesabı ilə qalib gəlmişdi.

Qeyd edək ki, oyunlar "Dünya" məktəbinin idman kompleksində keçirilir. Hakimlər Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov və Beynəlxalq əlaqələr ofisinin işçisi Vuqar Quluzadədir.

Mayın 9-da Tələbə Məclisinin təşkil etdiyi Futzal Kubokunun qaydalarına əsasən qrup liderləri – Humanitar və sosial elmlər fakültəsi və Təhsil fakültəsinin komandaları arasında final oyunu keçiriləcək.

## BƏRPA OLUNAN ENERJİ LABORATORİYASININ AÇILIŞI

Aprelin 23-də Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin Bərpa olunan enerji laboratoriyasının açılışı oldu.

Tədbirin açılışında fakültənin bu semestr bərpa olunan enerji fənnini götürən və külək enerjisi ilə bağlı iki təcrübədə iştirak etmiş tələbələri iştirak edirdilər.

Laboratoriyanı TEMPUS Enerji Layihəsi dəstəkləyir. Əsas seçmə fənn kimi mühəndislik proqramına daxil edilmiş bərpa olunan enerji fənninin laboratoriya hissəsi burada keçiriləcək.

Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs laboratoriyaya baş çəkdilər və təcrübələri nəzərdən keçirdilər.

Laboratoriya "Dünya" məktəbinin kampusunda yerləşir.

## OPENING OF RENEWABLE ENERGY LABORATORY

The Renewable Energy Laboratory of Khazar University's School of Engineering was opened on April 23, 2015.

At the opening event, engineering students who are taking the Renewable Energy course this semester participated in two experiments related to wind energy.

This laboratory is supported by the Tempus Energy Project. It will be an integrated part of the renewable Energy course which is included in our engineering curriculum as a major elective.

Dr. Mahammmad Nuriyev, Vice President for Academics, and Dr. Hassan Niknafs, the Dean of the School of Engineering and Applied Sciences, made a visit to the lab and oversaw the experiments. The laboratory is located on the campus of Dunya School.

## "ELM ÜÇBUCAĞI" VERİLİŞİNİN NÖVBƏTİ BURAXILIŞI

2015 - ci il aprelin 26 - da İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" verilişinin növbəti buraxılışı oldu. Veriliş "Qloballaşma və onun təsirləri" mövzusuna həsr olunmuşdu.

Universitetin əməkdaşları verilişdə dinləyici qismində iştirak edirdilər.



## “AMERİKADA TƏHSİL” SİLSİLƏSİNDƏN TƏQDİMAT

Aprelin 28-də Beynəlxalq əlaqələr ofisi, Karyera Mərkəzi və Amerika Təhsil-Məsləhət Mərkəzi ABŞ-da təhsil silsiləsindən növbəti təqdimatı təşkil etdilər.

Təqdimat Xəzər Universitetinin “Neftçilər” kampusunda təşkil olundu.

Təqdimat zamanı ABŞ-da təhsil məsləhətçisi Leyla Həmidova ABŞ universitetlərinə müraciət prosesi və müraciət ərizələri haqqında məlumat verdi. o, müraciət ərizələri, onların növləri, strukturu və suallar haqqında da danışdı, müraciət ərizəsi ilə birlikdə tələb olunan sənədlər və onların hazırlanma və təhvil vermə vaxtı haqqında da söhbət açdı.

Təqdimat sual-cavab sessiyası ilə yekunlaşdı.

Amerika Təhsil-Məsləhət Mərkəzi ABŞ Dövlət Departamenti tərəfindən dəstəklənən və akkreditə olunmuş ABŞ ali təhsil ocaqları haqqında dəqiq, dolğun və son məlumatları verən 400-ə yaxın əcnəbi tələbə məsləhət mərkəzləri şəbəkəsidir.

## SECOND SESSION BY EDUCATIONUSA

On April 28, the International Affairs Office, in collaboration with the Career Center and EducationUSA, organized the next presentation in a series of presentations about studying in the USA. The presentation was held on the Neftchilar Campus of Khazar University.

During the second session, EducationUSA adviser Leyla Hamidova spoke in detail about application forms and admission process. Ms. Hamidova provided information about types of applications, their structure, and questions that applications for admissions usually contain. Ms. Hamidova also told the participants about the documents requested by American universities with the application forms and guided the participants through the process of their preparation and submission. The presentation ended with a question and answer session.

EducationUSA is a U.S. Department of State network of over 400 international student advising centers providing accurate, comprehensive, and current information about accredited postsecondary institutions in the United States.

## DİSSERTASİYANIN İLKİN MÜZAKİRƏSİ KEÇİRİLDİ

Aprelin 24-də Xəzər Universitetinin sosial fəlsəfə ixtisası üzrə doktorantı Xəyalə Məmmədovanın “Azərbaycan cəmiyyətinin sosial-mədəni inkişafının gender aspektləri” mövzusunda dissertasiyasının ilkin müzakirəsi keçirildi. Müzakirədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar şurasının sədri professor Hamlet İsaxanlı, Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyevlə yanaşı, AMEA Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşları – professor Afaq Rüstəmova, professor Əlikram Tağıyev və Mahrux Nəcəfli iştirak edirdilər.

Doktorant öz təqdimatında sosiallaşma prosesində gender meyarları, müxtəlif sahələrdə ortaya çıxan gender problemlərinin mənşəyi, onların həlli yolları, elm və təhsil sahəsində gender münasibətləri və s. kimi problemlərdən danışdı. Təqdimatdan sonra doktorant iştirakçıların suallarını cavablandırdı. Müzakirə iştirakçıları lehinə səs verməklə dissertasiyanın müdafiəyə təqdim olunması haqqında qərar verdilər.






## “LİDERLİK VƏ UĞUR FAKTORLARI” MÖVZUSUNDA NÖVBƏTİ MÜZAKİRƏ

Aprelin 23-də Xəzər Un[...] menecment fakültəsinin tələba[...] ktorları” silsiləsindən növbəti görüş keçirdilər. Budəfəki təqdimatda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Azərbaycanın xalq yazıçısı Çingiz Abdullayev iştirak edirdilər. Burada iki əsas mövzü üzərində müzakirə aparılırdı: təhsil biznesində, eləcə də ədəbiyyat və incəsənət sahəsində liderlik. Təqdimatda iştirak edən qonaqlar uyğun mövzularda uğur qazanmış şəxslərdirlər.

Sonda qonaqlar tələbələrin suallarını cavablandırdılar.

## “LEADERSHIP AND SUCCESS FACTORS” PRESENTATION

[...]resentations were made by [...]r University School of Economics and Management on the topic of Leadership and Success Factors. Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, and Chingiz Abdullayev, Azerbaijan People's Writer, participated in the event as honored guests. Discussions were held on the topic of leadership in the business of education as well as in the fields of literature and fine arts. The guests spoke from their personal experience.

At the end of the event, the guests answered students' questions.



## PROREKTORUMUZ ROMADA BEYNƏLXALQ KONFRANSDA

Aprelin 21-22-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Fərda Əsədov Romada (İtaliya) Pontifik (Roma papası) Katolik Universitetində "Qafqaz Albaniyası və müasir Azərbaycanda multikulturalizm" məsələlərinə həsr edilmiş elmi konfransda iştirak etdi. İtaliya, Böyük Britaniya, Rusiya və Azərbaycandan olan alimlər qədim və orta əsrlər dövründən indiyə qədər Azərbycanda müxtəlif dinlər, mədəniyyətlər və millətlər arasında münasibətlər haqqında məruzələr etdilər.

Fərda Əsədov bu elmi toplantıda müasir Azərbaycanın şimal bölgəsində türklərin erkən məskunlaşma qəsəbələri və xüsusi olaraq, Çola qəsəbə və istehkamlarının salınması və əhalisi haqqında qədim ərəb mənbələrində aşkar etdiyi məlumatları təqdim etdi.

## VICE RECTOR AT INTERNATIONAL CONFERENCE IN ROME

On April 21-22, Vice Rector for International Affairs of Khazar University Farda Asadov attended an international conference in Rome at Pontifical Salesian University on multiculturalism in Caucasian Albania and contemporary Azerbaijan. Academics from Italy, UK, Azerbaijan and Russia contributed to the conference with a variety of papers on the interplay of diverse religions, cultures and ethnicities in Azerbaijan from the Ancient time and Middle Ages until the present.

Dr. Asadov presented his findings in ancient Arab sources about the earliest settlements of Turks on the northern borders of contemporary Azerbaijan with special insight into the construction and population of the ancient province and fortress of Chola located between Baku and Derbent.




## FAŞİST ALMANİYASI ÜZƏRİNDƏ QƏLƏBƏNİN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ DƏRS

Aprelin 30-da Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov Təhsil fakültəsi tələbələrinin iştirakı ilə növbəti dərsi Faşist Almaniyası üzərində qələbənin 70 illiyinə həsr etmişdir.

Dərsdə Sovet dövrü və İkinci Dünya müharibəsinə aid olan orden və medallar tələbələrə nümayiş olunmuş, onlar haqqında ətraflı məlumat verilmişdir.





## AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ OLUNMUŞ İRAN FİLMİ NÜMAYİŞ ETDİRİLDİ

Aprelin 24-də Xəzər Universitetinin Mərmər salonunda farscadan Azərbaycan dilinə tərcümə olunmuş rejissor Məcid Məcidinin "Cənnətin rəngi" filmi nümayiş olundu.

Tədbirdə İran İslam Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Möhsün Pakayin, İran İslam Respublikasının Azərbaycandakı Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi və Xəzər Universitetinin müəllim və tələbələri iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanlı iştrakçıları salamladı və İrana səfəri ilə bağlı xatirələrini danışdı. Sonra o, İran kinosu haqqında məlumat verdi.

Səfir Möhsün Pakayin Hamlet İsaxanlıya belə bir görüş üçün şərait yaratdığı üçün təşəkkürünü bildirdi, İran kino tarixindən danışdı. İbrahim İbrahimi İran və Azərbaycan rejissor və aktyorlarının birgə kino layihələrindən bəhs etdi.

Filmi Azərbaycan dilinə tərcümə etmiş Cavanşir Quliyev iş prosesində filmi daxilən yaşadığını və tərcümə sənəti haqqında öz fikirlərini bölüşdü.

Tədbirin sonunda Xəzər Universiteti İranşunaslıq mərkəzinin koordinatoru və tədbirin təşkilatçısı Nahid Şəfiyev çıxış edərək, tədbirin hazırlanması və keçirilməsində xidmətləri olan əməkdaşlara təşəkkürünü bildirdi.

## TRANSLATED IRANIAN FILM SHOWN AT KHAZAR

On April 24, 2015, Iranian director Majid Majidi's film "The Color of Paradise," translated into the Azerbaijani language, was shown at Khazar University's Marble Hall to an audience of Khazar faculty and students. His Excellency Mohsun Pakayin, the Ambassador Extraordinary and Plenipotentiary of the Islamic Republic of Iran; and Ibrahim Ibrahimi, Director of the Cultural Center of the Islamic Republic of Iran in Azerbaijan, also participated.

Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the event by greeting the participants. He spoke about his impressions from a trip to Iran and about the film.

Ambassador Pakayin also made a speech, thanking H.Isaxanli for the opportunity to hold the event. He also spoke about the history of Iranian film. I.Ibrahimi spoke about various film projects involving both Iranian and Azerbaijani directors and actors.

Javanshir Guliyev, who translated the film into Azerbaijani, was also an honored guest of the event. He spoke about how the film had captivated him while he was translating it and shared thoughts about the translation profession.

At the end of the event, Nahid Shafiyev, the coordinator of the Iranian Studies Center at Khazar University and the event organizer, made a speech to thank all the participants as well as those who had helped coordinate the event.

## EBSCO DİSCOVERY MÖVZUSUNDA TƏLİM

Aprelin 29-da Xəzər Universitetində Kitabxana İnformasiya Mərkəzinin dəstəyi ilə EBSCO-nun nümayəndəsi İrina Krejcarova tərəfindən *EBSCO Discovery* xidməti (EDS) mövzusunda təlim keçirildi.

Təlimdə EBSCO-nun EDS xidmətinin üstünlükləri və imkanları haqqında ətraflı məlumat verildi.

## EBSCO REPRESENTATIVES VISIT KHAZAR

On April 29, 2015, a presentation of the EBSCO Discovery Service was held at Khazar University with the support of the Library Information Center. The presentation was made by EBSCO representative Irina Krejcarova.

The presentation covered the advantages and capabilities of the EBSCO Discovery Service.

On April 24, the Embassy of the Republic of Korea in Azerbaijan organized a K-Pop music festival in Baku. This festival was part of the K-Pop World Festival, an annual event organized by South Korea's Ministry of Foreign Affairs. After preliminary competitions are held, fans of K-Pop are invited by the South Korean government to take part in the final round of the competition held every year in Changwan.

The Baku K-Pop Festival was held at the University of Foreign Languages. Seventeen teams competed in the festival by singing Korean songs and performing dances. Three of the participants were from Khazar University: Shabnam Bakhshakiyeva, Gunel Sabzaliyeva and Gulshan Rustamova. Gulshan's charming voice impressed the jury, and she took first place.

This Festival took place for the first time in Baku last year at Baku State University. Last year Pinar Alekperzadeh, a graduate of Khazar University, took first place in the competition.






## ƏMƏKDAŞIMIZ İCTİMAİ TV-NİN "DİN VƏ CƏMİYYƏT" VERİLİŞİNDƏ

Aprelin 24-də İctimai TV-nin "İslam həyat tərzi" silsiləsindən "Vaxtdan səmərəli istifadə" mövzusunun müzakirə olunduğu "Din və cəmiyyət" verilişində "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev də iştirak etmişdir.

O, müasir Azərbaycan cəmiyyətində vaxtın idarə edilməsi və ondan istifadənin lazımi səviyyədə olmadığı haqqında mülahizələrini bildirmiş və bunun əsasən gənclər arasında daha çox müşahidə olunduğunu vurğulamışdır.



# QUBAYA SƏFƏR

Aprelin 26-da Tələbə Məclisinin (TM) prezidenti Mirzəağa Səmədov, vitse-prezident Əzizə Cəfərli, TM parlamentinin üzvləri, İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Yeganə Balamedova və "Dünya" məktəbi şagird birliyinin sədri Rüstəm Həsənov Quba rayonuna istirahətə getdilər.

Onlar Qubanın tarixi yerlərini, meşə və dağlarını gəzərək əyləndilər. Həmçinin, gəzinti zamanı "Xəzər TV"-nin "Yolçu" verilişinə də çəkildilər.



## FOTOQRAF RƏZA DƏĞATİNİN AZƏRBAYCAN ALBOMU

Dünyada tanınmış fotoqraf Rəza Dəğatinin Azərbaycan haqqında foto albomu *www.maptia.com* saytında dərc olundu. Azərbaycanın müxtəlif adət-ənənələri və bölgələri işıqlandırılan şəkillərlə bu linkdə tanış ola bilərsiniz:

*https://maptia.com/reza/stories/elegance-of-fire*

## "XƏZƏR"İN ƏMƏKDAŞI BEYNƏLXALQ LAYİHƏNİN MÜZAKİRƏSİNDƏ

Aprelin 21-22-də Xəzər Universitetinin Karyera mərkəzinin koordinatoru Ülviyyə Hüseynova Gürcüstanın Kutaisi şəhərində Akaki Tsereteli Universitetində keçirilən növbəti SSDS layihəsinin beynəlxalq görüşündə iştirak etdi. Layihədə 11 dövlətdən əməkdaşlar iştirak edirdilər. Görüşdə layihə çərçivəsində görülən və görüləcək işlər haqqında məlumat verildi və iş bölgüsü aparıldı.

Layihə əməkdaşları arasında Xəzər Universitetinin gördüyü işlər müsbət qiymətləndirildi və təşəkkür elan olundu.

Layihənın sonuncu görüşünün sentyabr və ya oktyabr ayında Rumıniyada keçirilməsi nəzərdə tutulmuşdur.

## KHAZAR FACULTY MEMBER IN DISCUSSION OF INTERNATIONAL PROJECT

On April 21-22, Ulviyya Huseynova, Khazar University Career Center Director, participated in an international meeting in Kutaisi, Georgia at Akaki Tsereteli University for the SSDS Tempus project. The meeting included participants from 11 countries. During the meeting, the participants discussed the project's progress and divided up remaining tasks. They positively evaluated the work that Khazar University has done on this project and announced their gratitude.

The final project meetings will be scheduled for September or October in Romania.



# AMBASSADOR OF FRANCE VISITS KHAZAR

On April 30, the Department of Political Science and International Relations hosted H.E. Pascal Meunier, Ambassador Extraordinary and Plenipotentiary of France in Baku within the Jean Monnet European Seminar Series. The event was dedicated to Jean Monnet, who is widely called "The Father of Europe" by those who see him as the architect of the European Union.

Ambassador Meunier mentioned that Jean Monnet's ideas and actions carry great clout not only in France, where he was an actor in economic life, but also far beyond French borders.

Following the presentation, Dr. Mukhtar Hajizada, Jean Monnet Chair at Khazar University, conducted a discussion on Jean Monnet's role in national economic planning in France, as an outstanding leader in the postwar movement in Europe and as a craftsman of peace and economic prosperity on the old continent.

After the meeting, Ambassador Meunier met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and talked about opportunities for future cooperation between the Embassy and University.



# ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

Aprelin 29-da Xəzər Universiteti Elmi-İnzibati Şurasının növbəti iclası keçirildi. Universitetin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyevin sədrliyi ilə keçən iclasda yaz imtahan sessiyasının təşkili və keçirilməsi; məzunluq; doktorantların qəbulu və dissertasiya mövzularının təsdiqi; universitetin Müsiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovaya dosent adı verilməsi haqqında məsələlər müzakirə olundu.

Yaz imtahan sessiyasının təşkili və keçirilməsi haqqında M. Nuriyevin, məzunluq haqqında fakültə dekanları Hassan Niknafs, İnqilab Əhmədov, Cabir Xəlilov və Elza Səmədovanın, doktorantların qəbulu və dissertasiya mövzularının təsdiqi haqqında universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyevin, universitetin Müsiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovaya dosent adı verilməsi haqqında Cabir Xəlilovun məlumatları dinlənildi və müvafiq qərarlar qəbul edildi.

İclasda Xəzər universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış etdi.

İclasda cari məsələlər də müzakirə olundu.

## KONFRANS MATERİALLARI ÇAP OLUNMUŞ KİTABIN TƏQDİMATINDA

Aprelin 29-da Fransanın Azərbaycan Respublikasındakı səfirliyinin nəzdində fəaliyyət göstərən Fransa İnstitutunda Fransanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Paskal Mönyenin və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının iştirakı ilə kitab təqdimatı keçirildi.

Təqdim olunan kitab 2010-cu il oktyabrın 19-20-də Fransanın *Maison des sciences de l'homme Lorraine-MSH Lorraine*, *Nancy -2* və *Versailles Saint-Quentin* universitetlərinin əməkdaşlığı ilə Xəzər Universitetində keçirilmiş “Millətlərin qurman zövqləri: onların xüsusiyyətlərinin digərləri tərəfindən (Avropa, XVIII-XXI əsrlər) interpretasiyası, təhlili və yayılması” adlı beynəlxalq konfrans materiallarının toplusudur. Konfrans materialları *“Le Gout des Autres: De l'expérience de 'altérité gastronomique à l'appropriation*” adlanan kitaba toplanılmış və 2015-ci ildə Fransada çap olunmuşdur

Tədbirdə səfir Paskal Mönye, Hamlet İsaxanlı, Fransa səfirliyinin Mədəniyyət şöbəsinin müşaviri İv Zoberman, tədbirin təşkılatçısı, BSU-nun professoru Rəhilə Qeybullayeva, BSU-nun professoru Rəhilə Quliyeva çıxış etdilər.

## CONFERENCE MATERIALS BOOK PRESENTATION

On April 29, 2015, a book presentation was held at the French Institute of Azerbaijan (9 Fuzuli St), which operates in affiliation with the French Embassy in Azerbaijan, with the participation of His Excellency Pascal Meunier, Ambassador Extraordinary and Plenipotentiary to Azerbaijan, and Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. The book being presented, entitled “Le Gout des Autres: De l'expérience de 'altérité gastronomique à l'appropriation,” was recently published in France and is a compilation of materials from the international conference on “Gourmand Tastes of Nations: Interpretation, Analysis and Spread of Their Features by Others (Europe, XVIII-XXI Centuries)” which was held at Khazar University on October 21-22, 2010 with the coordination of Maison des sciences de l'homme Lorraine-MSH Lorraine, Nancy -2 and Versailles Saint-Quentin universities of France.

Speeches were made at the book presentation by His Excellency Pascal Meunier, Ambassador Extraordinary and Plenipotentiary to Azerbaijan; Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Iv Zoberman, Advisor to the Embassy for Partnership and Cultural Works; Rahila Geybullayeva, event coordinator and professor at Baku State University; and Rahila Guliyeva, also a professor at Baku State University.



## KALİFORNİYA DÖVLƏT UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Aprelin 29-da Kaliforniya Dövlət Universitetinin (ABŞ) maliyyə müəllimi professor Mo Vaziri və Əlavə təlimlər və hazırlıq fakültəsinin dekanı Tatyana Karmanova Xəzər Universitetində oldular, universitetlə, o cümlədən kitabxana ilə tanış oldular.

Sonra qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, prorektorlar Məhəmməd Nuriyev və İsaxan İsaxanlı, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Hassan Niknafs, İnkişaf direktoru Raziyə İsayeva, Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova ilə görüşdülər. Görüşdə universitetlər arasındakı əməkdaşlıq məsələləri müzakirə olundu.



## CALIFORNIA STATE UNIVERSITY REPRESENTATIVES VISIT KHAZAR

On April 29, 2015, Professor Mo Vaziri, Instructor of Finance at California State University (San Bernadino) and Dr. Tatiana Karmanova, Dean of the College of Extended Learning of the same university, visited Khazar University. They were given a tour of the university's library and classrooms. Then they met with Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Professor Mahammad Nuriyev, Vice President for Academic Affairs; Dr. Isaxan Isakhanli, Vice President for Student Affairs and Admissions; Dr. Hassan Niknafs, Dean of the School of Engineering and Applied Sciences; Raziya Isayeva, Development Director; and Lyudmila Sotova, Director of the Quality Assurance Center. During the meeting, the universities' existing MOU and new prospects for mutual cooperation were discussed.



# "Dünya" İdman Kompleksi

ACKF

Azərbaycan Coriyo Kunq Fu Federasiyası

## MEDİTASİYA: GƏRGİNLİYƏ SON

İnsan istənilən vəziyyətdə daxili sakitliyini qorumağı bacarmalıdır. Təəssüf ki, bu hər zaman mümkün olmur.

Diqqətsizlik, səbrsizlik, əsəb zəifliyi, daxili yorğunluq, psixoloji sarsıntılar müasir insanların işdə, ailədə üzləşdiyi çətinliklərdir.Gərginliyə son qoymaq üçün insanlar müxtəlif vasitələrə əl atır, təbabətin təqdim etdiyi üsullardan istifadə edirlər. Lakin hər bir dərmanın orqanızmə müsbət təsiri ilə bərabər, ziyanı da vardır.

Hər gün və yaxud ən azı həftədə bir dəfə 10-15 dəqiqə meditasiya ilə məşğul olmaqla gərginliyə son qoymaq mümkündür.

Sakit bir yerdə əyləşin. Həmin yer təmiz və havalı olmalıdır.Əllərinizi bir-birinin üzərinə qoyaraq, ayaqlarınızı çarpaz vəziyyətə salın. Gözlərinizi bağlayın. Bel sütununuzun düz vəziyyətdə olmasına çalışın. İlk 3 dəqiqə sakit vəziyyətdə oturun. Rahat nəfəs alın. Nəfəsalmanı meditasiya zamanı yalnız burun vasitəsilə edin. Fikrinizi nəfəsinizin bədəninizə girib-çıxmasına yönəldin.





Sağ əlinizin baş barmağı ilə burnunuzun sağ kanalını bağlayaraq, sol kanal ilə 5 dəfə dərin nəfəs alın.

Sol əlinizin baş barmağı ilə burnunuzun sol kanalını bağlayaraq, sağ kanal ilə 5 dəfə dərin nəfəs alın.

Əllərinizi başınız üzərinə qaldıraraq dərin nəfəs alın.

Nəfəsinizi bir neçə saniyə saxlayın. Sonra əllərinizi yavaş-yavaş aşağı salaraq nəfəsinizi yavaş-yavaş xaric edin. Bu hərəkəti 5 dəfə təkrar edin.







Qollarınızı yanlara doğru açaraq dərin nəfəs alın. Nəfəsinizi bir neçə saniyə saxlayın. Sonra əllərinizi yavaş-yavaş başınız üzərindən aşağı gətirərək,nəfəsinizi yavaş-yavaş xaric edin. Bu hərəkəti 5 dəfə təkrar edin.

Əlavə məlumat üçün “Dünya” İdman Kompleksində beynəlxalq qrandmaster Davud Mahmudzadəyə müraciət edə bilərsiniz.





**Ünvan: Azadlıq prospekti, Əcəmi Naxçıvani 9, Dünya Məktəbi**
**Telefon: (012) 563 59 47/48, (055) 569 23 23**

# MOSKVADA VÜQAR HƏŞİMOVUN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ ŞAHMAT TURNİRİ



Aprelin 29-da Moskva Millətlər Evində Avropa çempionu, görkəmli şahmatçı Vüqar Həşimova həsr edilmiş şahmat turniri keçirilib. Azərbaycan Mədəniyyətinin İnkişafı və İntibahı Fondu tərəfindən təşkil olunan yarışda Buryatiya, Tuva, Kalmıkiya icmalarının nümayəndələri və Fondun fəalları iştirak ediblər.

Tədbir iştirakçılarını Millətlər Evinin gənclərlə iş şöbəsinin rəis müavini S.Ablotiya, Fondun rəhbəri Ş.Tağıyev və turnirin baş hakimi İ.Yanbuxtin salamlayıblar. Vüqar Həşimovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yarış İsveçrə sistemi üzrə keçirilib və 7 turdan ibarət olub.

Hər tur 10 dəqiqə davam edib. Birinci yerə Kalmıkiya icmasının nümayəndəsi Dolqan Nyudleyev, ikinci yerə Buryatiya icmasından Bato Şoyjinimayev, üçüncü yerə tələbə Mixail Oborin çıxıb.

***Fəridə Abdullayeva,***
***AZƏRTAC -ın xüsusi müxbiri***
***Moskva***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru Qüdrət İsmayılzadəyə həyat yoldaşı

**Sevil İsmayılzadənin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasova anası

**Gülxar Abbasovanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!



Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (012) 563 59 40/47/48
Mob.: (070) 844 08 88
E-mail: info@dunyaschool.az
http://dunyaschool.az

Dünya bağçası
012) 563 59 43; 563 59 45
Mob.: (070) 560 15 18
E-mail: bagca@dunyaschool.az

# DÜNYA MƏKTƏBİ

## VALİDEYNLƏRİN VƏ ŞAGİRDLƏRİN NƏZƏRİNƏ!

XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ 2015-2016-CI TƏDRİS İLİNDƏ I-XI SİNİFLƏRƏ ŞAGİRD QƏBULU ELAN EDİR:
Qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır. Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.
Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.
Diplom Proqramında təlim ingilis dilindədir. Təhsil müddəti 2 ildir.
Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## MƏKTƏBƏQƏDƏR HAZIRLIQ

2015-2016 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.
Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.
Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-Əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.




**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- **Kompüter elmləri**
- **Neft-qaz mühəndisliyi**
- **Kompüter mühəndisliyi**
- **İnşaat mühəndisliyi**
- **Riyaziyyat və informatika müəllimliyi**
- **Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi**
- **Kimya mühəndisliyi**
- **Biotibbi texnika mühəndisliyi**

**II qrup üzrə:**

- **Mühasibat uçotu və audit**
- **Maliyyə**
- **İqtisadiyyat**
- **Menecment**
- **Marketinq**
- **Biznesin idarə edilməsi**
- **Tarix müəllimliyi**
- **Coğrafiya müəllimliyi**
- **Regionşünaslıq (regionlar üzrə)**
- **Beynəlxalq münasibətlər**

**III qrup üzrə:**

- **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi**
- **Xarici dil (ingilis dili) müəllimliyi**
- **İbtidai sinif müəllimliyi**
- **Filologiya (İngilis dili və ədəbiyyatı)**
- **Filologiya (Azərbaycan dili və ədəbiyyatı)**
- **Politologiya**
- **Tərcümə (ingilis dili və digər dillər)**

**IV qrup üzrə:**

- **Kimya müəllimliyi**
- **Biologiya müəllimliyi**
- **Psixologiya**

**Ünvan: Məhsəti küçəsi, 41**
**(Neftçilər metrosunun yaxınlığında)**
**Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27**
**Faks: (012) 498-93-79**
**İnternet: http//www.khazar.org**

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
Xəzər Universiteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

**"QS"** təşkilatının 2014-cü il dekabr ayının 17-də elan etdiyi reytinq cədvəlinə əsasən **Xəzər Universiteti** Azərbaycanın ən yaxşı ali məktəbi olmaqla yanaşı, Şərqi avropa, keçmiş sovet ölkələri və Türkiyə daxil olmaqla böyük bir regionun 100 ən yaxşı universiteti sırasına daxil edilmişdir. *http://www.iu.qs.com/eeca2014-rankings-results/*

**EDUNIVERSAL** Beynəlxalq Elmi Cəmiyyətinin 2014-cü il dekabr ayının 24-də açıqladığı reytinq cədvəlinə görə Xəzər Universitetinin ***Menecment, İqtisadiyyat, Mühasibat uçotu və audit*** ixtisasları üzrə MBA proqramları 2014-cü ildə dünyanın ən yaxşı 200 magistr proqramı sırasına daxil olub. Eyni zamanda, hər 3 proqram Avrasya və Yaxın Şərq bölgəsi üzrə ən yaxşı 10 magistr proqramı siyahısında yer alıb. *www.best-masters.com*

***

*Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.*

***Professor Əjdər Ağayev,***
***Azərbaycan Təhsil Şurasının sədri***

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. Imtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**